26 aprel 2024 №31-32 (2097)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Pənahəli xanın sarayı və İmarət kompleksində görülən işlərlə tanışlıq



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov aprelin 25-də Ağdamda Pənahəli xanın sarayı və İmarət kompleksində görülən işlərlə tanış olublar.

Mədəniyyət naziri Adil Kərimli görülən işlər barədə dövlət başçılarına məlumat verib.

Bildirilib ki, Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq abidələrindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindəndir. Kompleksin ərazisinə tarixi abidələr, Pənahəli xanın iqamətgahı, qonaq evi, Mehdiqulu xanın məqbərəsi, Xanoğlan məqbərəsi, İbrahim xanın məqbərəsi, Pənahəli xanın məqbərəsi, Xurşidbanu Natəvanın abidəsi və qəbiristanlıq daxildir. Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xan nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı erməni vəhşiliyinin canlı şahididir. Ağdam şəhəri işğal olunduqdan sonra İbrahimxəlil xanın türbəsi və Xurşidbanu Natəvanın qəbirüstü abidəsi ermənilər tərəfindən dağıdılıb.

Prezident İlham Əliyevin müvafiq tapşırığına əsasən, bu kompleksin bərpası işlərinə başlanılıb. Həmçinin 2022-ci il oktyabrın 4-də XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin bərpadan sonra açılışı olub.

İlkin konsepsiyaya əsasən, kompleks Pənahəli xanın sarayı, məqbərələr, kassa, məlumat mərkəzi və Qarabağ atları parkından ibarət olacaq. Pənahəli xanın sarayı bərpa ediləndə interaktiv muzey kimi fəaliyyət göstərəcək.

Sonra dövlət başçıları Qarabağ atlarına baxıblar.

Azərbaycan Prezidenti İlham Əliyev Qırğızıstan Prezidenti Sadır Japarova Qarabağ atı hədiyyə edib.

## Çingiz Aytmatov sevildiyi Azərbaycana tunc görkəmdə qayıtdı

### "Bu abidə qardaşlığımızın və birliyimizin daha bir rəmzidir"

Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Bakıda görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun abidəsinin açılış mərasimində iştirak ediblər.

Qeyd edək ki, dünyaşöhrətli yazıçı və ictimai xadim Çingiz Aytmatovun xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda ucaldılacaq abidənin eskiz layihələrinin hazırlanması üçün Mədəniyyət Nazirliyi tərəfindən 2023-cü ildə müsabiqə elan edilib. Müsabiqəyə heykəltəraşlar tərəfindən 21 əsər təqdim olunub. Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən Ekspert Komissiyası tərəfindən qaliblər seçilib. Birinci yerə Xalq rəssamı Natiq Əliyevin hazırladığı eskiz layihəsi layiq görülüb.

Azərbaycan və Qırğızıstan prezidentləri mərasimdə çıxış ediblər.

### Prezident İlham Əliyevin nitqindən

Bu gün Qırğızıstan ilə Azərbaycan arasında qardaşlıq münasibətləri tarixində əlamətdar gündür. Bu gün qırğız xalqının böyük oğlu Çingiz Aytmatovun abidəsi açılır. Əminəm ki, bu, dostluğumuzun, qardaşlığımızın və birliyimizin daha bir rəmzi olacaq.

Çingiz Aytmatov dünyaşöhrətli yazıçı, həyatı boyu həm Sovet İttifaqı məkanında, həm də dünya miqyasında öz xalqını layiqincə təmsil etmiş qırğız xalqının böyük oğludur.

Azərbaycanda onun yaradıcılığını sevir və fəal vətəndaş mövqeyinə, milli ruhuna və köklərinə sadiqliyinə görə ləyaqətli insan kimi hörmət bəsləyirdilər. Xatirimdədir, o, vəfatından bir az əvvəl Azərbaycana səfər etmişdi və mən onunla görüşmək, bir çox məsələlərdə uzun söhbət aparmaq imkanı əldə etdim. Həmin gün mən onu ehtiram əlaməti olaraq və münasibətlərimizin möhkəmlənməsi işində xidmətlərinə görə Azərbaycan dövlətinin yüksək mükafatı olan "Dostluq" ordeni ilə təltif etdim. O, hər zaman haqq-ədalətin tərəfində olub. Təsadüfi deyil ki, o, təkcə yazıçı kimi deyil, həm də ictimai xadim kimi keçmiş SSRİ məkanında və dünya miqyasında böyük hörmət qazanmış şəxsiyyət idi və onun xatirəsi, əlbəttə ki, qırğız xalqının, bütün qardaş xalqların qəlbində yaşayır.

Abidə Qırğızıstan Prezidentinin dövlət səfəri çərçivəsində açılır. Bu gün biz bir çox məsələlər, o cümlədən humanitar əməkdaşlıq məsələləri ilə bağlı çox səmərəli və mühüm danışıqlar apardıq. Bildiyiniz kimi, bu günlərdə Bakıda Qırğızıstan Mədəniyyəti Günləri keçirilir və rəmzi haldır ki, məhz belə təntənəli tədbirlər və dövlət səfəri çərçivəsində Bakı şəhərinin mərkəzi küçələrindən biri olan Azadlıq prospektində biz bu gün bu tədbirdə iştirak edirik.

Çingiz Aytmatovun Bakıdakı abidəsi bizim birliyimizin, dostluğumuzun və qardaşlığımızın rəmzinə çevriləcək. Əminəm ki, bütün Türk dünyası öz layiqli nümayəndəsi ilə fəxr edir.




### Prezident Sadır Japarovun nitqindən

Bu gün biz gözəl Bakı şəhərində böyük bir hadisəni – öz istedadı və insan ruhunu dərindən dərk etmək məharəti ilə dünyamıza işıq salan görkəmli qırğız yazıçısının və bütün türk xalqının oğlunun abidəsinin açılışını qeyd etmək üçün toplaşmışıq.

Qırğızıstan adından Azərbaycan Prezidenti möhtərəm İlham Heydər oğlu Əliyevə ölkəmizə və Çingiz Aytmatova olan ehtiramına görə təşəkkürümü bildirirəm. Bu abidə Çingiz Aytmatovun yaradıcılıq irsinə böyük hörmət və ehtiramın ifadəsidir.

davamı səh. 2-də

## Mədəniyyət xalqları daha da yaxınlaşdırır

### Bakıda keçirilən Qırğız Mədəniyyəti Günləri buna bariz nümunədir



Xəbər verdiyimiz kimi, 23-26 aprel tarixlərində Azərbaycanda ilk dəfə Qırğız Mədəniyyəti Günləri keçirilir.

Aprelin 24-də Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində Qırğız Mədəniyyəti Günlərinin təntənəli açılış mərasimi keçirildi.

Tədbirdə rəsmilər, iki ölkənin mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri və digər qonaqlar iştirak edirdilər.

Əvvəlcə qonaqlar Heydər Əliyev Mərkəzində təqdim edilən Qırğızıstanın dekorativ-tətbiqi və təsviri sənət ustalarının əsərlərindən ibarət sərgi, geyim kolleksiyası və milli mətbəx nümunələri ilə tanış oldular.

Açılış mərasimində ilk olaraq qırğız rəqs kollektivinin ifasının yaradılışı simvolizə edən maraqlı kompozisiya nümayiş etdirildi.

Sonra Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və Qırğızıstanın mədəniyyət, informasiya, idman və gənclər siyasəti naziri Altınbek Maksutov səhnəyə dəvət olundular.

Adil Kərimli qardaş ölkədən gəlmiş qonaqları və tədbir iştirakçılarını salamladı. Qeyd etdi ki, ölkələrimiz müstəqillik qazandıqdan sonra ilk dəfədir Azərbaycanda Qırğız Mədəniyyəti Günləri keçirilir: "Dövlət başçılarımızın səmimi dostluq münasibətləri son illərdə Azərbaycan ilə Qırğızıstan arasında müxtəlif sahələr üzrə əlaqələrin daha da inkişafına münbit zəmin yaradıb. Dövlət başçılarımızın bu gün Bakıda keçirilən görüşləri və müxtəlif sahələrdə əməkdaşlıqla bağlı imzalanan sənədlər ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə inkişafına öz töhfəsini verəcək".

davamı səh. 3-də

## Azərbaycanlı rejissorun qısa filmi Kann festivalında

Rejissor Azər Quliyevin "Sanki yoxsan" adlı qısametrajlı ekran əsəri 77-ci Kann Film Festivalında göstəriləcək. Ekran işi festivalın qısametrajlı filmlər müsabiqəsinin proqramına salınıb.

Müsabiqəyə təqdim olunan 4420 film arasından Azərbaycan, Braziliya, Kanada, Çin, Xorvatiya, ABŞ, Fransa, Kosovo, Litva və Portuqaliya kimi 10 ölkədən 11 qısametrajlı film seçilib.

77-ci Kann Film Festivalı 14-dən 25-dək davam edəcək. Qaliblər Lubna Azabalın sədrlik etdiyi münsiflər heyəti tərəfindən seçiləcək.

## Ölkəmiz Qlobal Dayanıqlı Turizm Şurasına üzv qəbul edilib



Dövlət Turizm Agentliyi Qlobal Dayanıqlı Turizm Şurasına üzv qəbul edilib. Agentlikdən bildirilib ki, bu haqda qərar İsveçin paytaxtı Stokholmda keçirilən "Dayanıqlı Turizm" konfransında qəbul edilib. Həmçinin konfrans çərçivəsində, Azərbaycan Turizm Bürosu və Qlobal Dayanıqlı Turizm Şurası arasında memorandum imzalanıb.

Tədbirdə çıxış edən Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqştmid Şuraya üzvlüyün turizm sənayesindəki yerli tərəfdaşlarla birgə fəaliyyətin həvəsləndirilməsinə, marketinq kampaniyaları vasitəsilə yerli turizm sənayesinin dayanıqlı inkişafına töhfə verəcəyini bildirib.

Qlobal Dayanıqlılıq Turizm Şurası 2007-ci ildə "Rainforest Alliance" təşkilatı, BMT-nin Ətraf Mühit Proqramı, Əhali Fondu və Dünya Turizm Təşkilatının birgə təşəbbüsü olan "Qlobal Dayanıqlı Turizm Kriteriyaları"nın formalaşdırılması məqsədilə yaradılıb.

## Musiqi və incəsənət məktəblərinə şagirdlərin qəbulu ilk dəfə elektron formatda

Mayın 6-dan 31-dək Mədəniyyət Nazirliyinin tabeliyindəki musiqi, incəsənət məktəb və mərkəzlərinə şagird qəbulu ilk dəfə olaraq my.culture.az elektron portalı vasitəsilə aparılacaq.

Bununla da təhsil alanlar əlavə vaxt sərf etmədən və təhsil müəssisələrinə getmədən şəxsi kabinet üzərindən qeyd olunan xidmətdən yararlana biləcəklər. Bu da vətəndaş məmnuniyyəti, şəffaf və çevik ünsiyyətin təmin edilməsində önəmli rol oynayacaq.

Təhsil alanın müraciətinin nəticəsi, habelə imtahanın vaxtı və yeri ilə bağlı namizədin şəxsi kabinet və elektron poçt ünvanına bildiriş göndəriləcək.

Qeydiyyatdan uğurla keçmiş namizədlər iyunun 5-dən 15-dək əyani şəkildə keçiriləcək qəbul imtahanlarında iştirak edə biləcəklər.

Bütün imtahanlar yekunlaşdıqdan sonrakı 3 gün ərzində namizədin şəxsi kabinetinə nəticəyə dair bildiriş göndəriləcək. Uğur qazanmış təhsil alanlar 3 gün müddətində sistem üzərindən təhsil alacaqlarını təsdiq etməlidirlər.

Məlumat üçün bildirək ki, Mədəniyyət Nazirliyinin tabeliyindəki musiqi, incəsənət məktəb və mərkəzlərində tədrisin müasir tələblərə uyğun qurulması istiqamətində sistemli iş aparılır. Təhsil alanların elektron qəbulu prosesində ən vacib məqam rəqəmsallaşma, ölkədaxili informasiya sistemləri ilə inteqrasiya və əlçatan xidmət tələblərinə cavab verməkdir. Eyni zamanda Mədəniyyət Nazirliyi sistemində bütün xidmətlərin vahid portal (my.culture.az) üzərindən inteqrasiyası uğurla icra olunur ki, bu da cəmiyyətlə daha çevik və hərtərəfli kommunikasiyanın qurulmasında vacib əhəmiyyət daşıyır.

## Musiqisi Ələkbər Tağıyevindir...



Bu təqdimatla görün nə qədər nəğmələr könlümüzün sarı siminə toxunub, ruhumuza qol-qanad verib. O bir bəstəkar kimi yaşadığı dövrün sənətlə bağlı müxtəlif qadağalarına rəğmən, böyük tapıntılarından idi.

səh. 6



"Fərəc Qarayevin portreti"ndə növbəti axşam

səh. 3



Regional xor müsabiqəsi keçirilir

səh. 4



"Gizli və aşkar" – mərhum rəssamın sərgisi

səh. 5

# Xıdırlı kəndində tikiləcək məktəb Qırğızıstanın xalqımıza hədiyyəsi olacaq



Azərbaycan və Qırğızıstanın prezidentləri İlham Əliyev və Sadır Japarov aprelin 25-də Ağdam rayonunun Xıdırlı kənd tam orta məktəbinin birgə təməlqoyma mərasimində iştirak ediblər.

Dövlət başçılarına layihə barədə məlumat verilib.

Bildirilib ki, Xıdırlı kənd tam orta məktəbinin inşası üçün 2,7 hektar ərazi ayrılıb. İki yerüstü və bir yeraltı mərtəbədən ibarət olacaq binada tikinti işlərinin 2024-cü ilin sonunadək başa çatdırılması planlaşdırılır.

Azərbaycan və Qırğızıstanın tarixi dostluq təməlləri üzərində qurulan münasibətləri yüksələn xətlə inkişaf edir. Qırğızıstan Prezidentinin təşəbbüsü ilə Ağdamın Xıdırlı kəndində məktəb binasının inşası da qardaş ölkənin xalqımıza hədiyyəsi olacaq.

***

Prezidentlər İlham Əliyev və Sadır Japarov aprelin 25-də Ağdama səfər zamanı Şahbulaq qalasında olublar.

Məlumat verilib ki, Ağdam şəhərinin 10 kilometrliyində, Şahbulaq kəndi yaxınlığında yerləşən qala 1751–1752-ci illərdə Qarabağ xanlığının banisi Pənahəli xan tərəfindən inşa etdirilib. Ermənilər 1993-cü ildə Ağdamı işğal etdikdən sonra bir sıra abidələrimiz kimi Şahbulaq qalasını da erməniləşdirməyə çalışıb, yaxınlığındakı məscidi isə kilsə kimi təqdim ediblər.

Hazırda abidədə Azərbaycan dövləti tərəfindən bərpa işləri aparılır. 12 hektar ərazi abadlaşdırılıb, inzibati bina, avtodayanacaq tikilib. Şahbulaq iqamətgahı, Şah Abbas məscidi, restoran, hotel kompleksi, söhbətgahlar, tədbir meydançası və s. yaradılıb.

***

Dövlət başçıları Ağdam Konfrans Mərkəzi ilə də tanış olublar.

# Ağdam Cümə məscidinin bərpadan sonra açılışı

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam Cümə məscidinin bərpadan sonra açılışında iştirak ediblər.



Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov məsciddə görülən işlər barədə məlumat verib.

Diqqətə çatdırılıb ki, Ağdam şəhərindəki Cümə məscidi memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən 1868–1870-ci illərdə tikilib. Şəhər Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğu müddətdə Cümə məscidi ermənilər tərəfindən yandırılaraq vandalizmə məruz qalmışdı. Bərpa layihəsi çərçivəsində Ağdam Cümə məscidi əvvəlki görkəminə qaytarılıb.

2022-ci ilin martında başlanan konservasiya və restavrasiya işləri Heydər Əliyev Fondu tərəfindən aparılıb. "PAŞA Holdinq" şirkətinin dəstəyi ilə aparılan bərpa işlərinə yerli mütəxəssislərlə yanaşı, xarici mütəxəssislər, Avstriyanın "Brugger&KO Restauratoren GmbH" şirkəti də cəlb olunub.

Məscidin eyvan divarlarında daş və birləşmələr qeyri-təbii materiallardan təmizlənərək bərpa olunub, həmçinin bünövrələrin möhkəmləndirilməsi işləri aparılıb. Qırıq minarə daşları bərpa olunub, taxta konstruksiyaların bərpası və konservasiya işləri görülüb.

Qeyd edək ki, işğal dövründə – 2000-ci il mayın 9-da ABŞ-nin ATƏT-in Minsk qrupundakı xüsusi nümayəndəsi səfir Keri Kavano tərəfindən Azərbaycan Prezidenti Heydər Əliyevə təqdim olunmuş Ağdam Cümə məscidinə aid daş parçası da burada nümayiş etdirilir.

# Dövlət mükafatlarına 25 iş təqdim edilib

## Mədəniyyət sahəsində 7, ədəbiyyat sahəsində 3 müraciət var

Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyası 2024-cü ilin Dövlət Mükafatlarına təqdim olunan işlərin siyahısını elan edib.

Məlumatda bildirilir ki, müvafiq qurumlar tərəfindən ümumilikdə 25, o cümlədən elm sahəsində 11, texnika sahəsində 3, memarlıq sahəsində 1, mədəniyyət sahəsində 7, ədəbiyyat sahəsində 3 müraciət-təqdimat edilib.

Qeyd edək ki, Dövlət Mükafatları Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 mart tarixli sərəncamı ilə təsis edilib. Hər biri 30 000 manat məbləğində olan Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə 5 Dövlət Mükafatı iki ildən bir (hər cüt ildə) 28 May — Müstəqillik Günü ərəfəsində Dövlət Mükafatları Komissiyasının qərarı ilə verilir.

Komissiyanın sədri Azərbaycan Respublikasının Baş naziridir. Komissiyanın tərkibinə aidiyyəti dövlət qurumlarının, AMEA, yaradıcılıq təşkilatları, bədii təmayüllü ali təhsil müəssisələrinin rəhbərləri, ədəbiyyat və incəsənət xadimləri daxildir.

Ölkə başçısının 2010-cu il 8 fevral tarixli fərmanı ilə "Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının Əsasnaməsi" təsdiq edilib və ilk mükafatlar həmin il verilib.

Onu da qeyd edək ki, 2022-ci ildə mükafat verilməyib. 2020-ci ildə isə yalnız bir nominasiya – elm sahəsində ("Materiyanın yeni kvant halı – antiferromaqnit topoloji izolyator: dizayn, əsas elektron xassələri və tətbiq perspektivləri" – müəlliflər qrupu) Dövlət Mükafatı verilib.

# Çingiz Aytmatov sevildiyi Azərbaycana tunc görkəmdə qayıtdı

## "Bu abidə dostluğumuzun, qardaşlığımızın və birliyimizin daha bir rəmzidir"

*əvvəli səh. 1-də*



Sevindirici haldır ki, Azərbaycan tərəfi ölkələrimiz arasındakı mədəni əlaqələrə böyük diqqət yetirir. Bu, xalqların yaxınlaşması baxımından son dərəcə vacibdir. Çingiz Aytmatovun xatirəsinin əbədiləşdirilməsi münasibətlərimizdə əlamətdar hadisədir. Biz bilirik ki, Çingiz Aytmatov Azərbaycanın böyük dostu idi və onun Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevlə dostluğunu xüsusilə vurğulamaq istərdim. Hər iki şəxsiyyət tarixdə silinməz izlər qoyub. Heydər Əliyev onu yazıçı və ziyalı şəxs kimi yüksək qiymətləndirirdi. O deyirdi ki, dünya ədəbiyyatı xəzinəsinə gözəl əsərlər bəxş edən Çingiz Aytmatov həm Qırğızıstanın, həm də bütün Türk dünyasının qürurudur.

Möhtərəm İlham Heydər oğlu, Çingiz Aytmatovun yubileyinin qardaş Azərbaycanda yüksək səviyyədə keçirilməsinə Sizin şəxsi töhfənizi də yüksək qiymətləndiririk. Çingiz Aytmatov, sadəcə, yazıçı deyildi, əsərləri ruhun dərinliklərinə nüfuz edən, bizi həyatın, sevginin, insan taleyinin mənası barədə düşünməyə vadar edən əsl söz dahisi idi. Bu abidənin Bakıda ucaldılması Qırğızıstanın və Azərbaycanın qardaş xalqları arasında dərin bağlılığın rəmzidir. Bu, Çingiz Aytmatovun yaradıcılığının hamımızı gözəllik, müdriklik və ahəngdarlıq uğrundakı vahid məqsəd ətrafında birləşdirdiyinin bariz sübutudur. Gənc nəslin ölkələrimizin qarşılıqlı münasibətlərinin tarixini, tarixi şəxsiyyətlərini, Qırğızıstan Respublikası ilə Azərbaycan Respublikası arasında mövcud əməkdaşlıq səviyyəsini əzəldən müəyyən etmiş liderlərin rolunu bilməsi və dərk etməsi çox vacibdir.

İkitərəfli münasibətlər nöqteyi-nəzərindən qeyd etmək istərdim ki, Azərbaycan Prezidentinin Qırğızıstana ilk səfəri 1995-ci ildə Heydər Əliyev tərəfindən, "Manas" dastanının 1000 illik yubileyinin qeyd edilməsi məqsədilə həyata keçirilib. Həmin vaxt o, bu kəlamları demişdi: "Biz bir-birimizi ürəyimizlə hiss edirik və başa düşürük". Bu qısa, lakin çox təsirli və səmimi ifadə ilə o, Qırğızıstan və Azərbaycanın, həqiqətən, qardaş xalqlar olduğunu nəzərdə tuturdu. Bu gün açılışına toplaşdığımız abidə hər kəsin böyük yazıçı ilə təmasda ola biləcəyi, xatirəsini ehtiramla yad edəcəyi və yaradıcılığından ruhlana biləcəyi bir yerə çevriləcək. Qoy, bu abidə hər kəsə insan ruhunun əzəmətini və sözün gücünü xatırlatsın.

***

Dövlət başçıları Çingiz Aytmatovun abidəsi üzərindən ağ örtüyü götürüblər. Bürüncdən hazırlanmış heykəlin hündürlüyü postamentlə birlikdə 3 metrə yaxındır.

Abidənin önündə Azərbaycan və ingilis dillərində müvafiq məlumat lövhəsi quraşdırılıb.

Prezidentlər Azərbaycan və Qırğızıstanın tanınmış mədəniyyət və incəsənət xadimləri ilə görüşüb söhbət ediblər. Sonda xatirə şəkli çəkdirilib.

# Füzuli və Ağdam necə yenidən qurulur?

## Prezidentlər hər iki şəhərin baş planları, görülən işlərlə tanış olublar

Azərbaycan Respublikasında dövlət səfərində olan Qırğız Respublikasının Prezidenti Sadır Japarov aprelin 25-də Füzuli rayonuna gəlib.

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Qırğız Respublikasının Prezidenti Sadır Japarovu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşılayıb.



Prezidentlər Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıb və şəhərin Baş planı ilə tanış olublar.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Qırğızıstan lideri Sadır Japarova işğalçı Ermənistanın 30 il ərzində Füzuli rayonunun ərazisində törətdiyi dağıntılar, vandalizm aktları barədə məlumat verib. Qeyd edilib ki, inşa olunacaq Füzuli Memorial Kompleksində dağıdılmış binaların xarabalıqları olduğu kimi qorunub saxlanılacaq. Kompleksdə İşğal və Zəfər muzeyləri yaradılacaq.

Dövlət başçılarına Füzulinin Baş planına uyğun olaraq həyata keçirilən və görüləcək işlər barədə də məlumat verilib.

Bildirilib ki, Baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Hazırda burada üç yaşayış kompleksi inşa olunur. Komplekslərdə ümumilikdə 2462 mənzil olacaq. Baş plana əsasən, təxminən 22,5 hektar ərazidə Mərkəzi park yaradılacaq.

***

Azərbaycan və Qırğızıstanın dövlət başçıları yenidən qurulan Ağdam şəhərinə gəliblər.

Dövlət başçılarına şəhərin Baş planı barədə məlumat verilib.

Bildirilib ki, bir vaxtlar qaynar həyatın olduğu abad şəhərdən əsər-əlamət qalmayıb. Ağdam şəhəri Azərbaycan dövləti tərəfindən yenidən salınır. Bərpa konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq ona uyğun infrastruktur yaradılır. Bu məqsədlə "Agdam City Hotel" və "Hilton Garden Inn" layihələri icra edilir. Şəhərdə İşğal və Zəfər muzeyləri kompleksi də yaradılır. Kompleks İşğal muzeyindən başlayacaq və Zəfər muzeyi ilə başa çatacaq. Onların arasında isə Xatirə bağı yerləşəcək. Ərazidə dağıntılar olduğu kimi saxlanılacaq. Muzey erməni vandallığının və işğal tarixinin şahidi olaraq gələcək nəsillərə Ağdamın 30 illik acı taleyini çatdıracaq, tarixi həqiqətləri unutmağa imkan verməyəcək.

Şəhərin mərkəzi hissəsində 960 yerlik ümumtəhsil məktəbi də tikiləcək. Muğam mərkəzi isə birmərtəbəli və ikimərtəbəli bloklardan ibarət olacaq.

Tanışlıq zamanı Füzuli və Ağdam rayonlarında türk dövlətləri tərəfindən həyata keçirilən təhsil və mədəniyyət ocaqları layihələri də qeyd edilib. Vurğulanıb ki, ötən ilin avqustunda Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan 960 şagird yerlik Mirzə Uluqbəy adına məktəbin, bu ilin martında Qazaxıstan tərəfindən inşa olunmuş Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin istifadəyə verilməsi, eləcə də Prezident Sadır Japarovun təşəbbüsü ilə Ağdam rayonunda Qırğızıstan tərəfindən tikiləcək orta məktəb ölkələrimizin və xalqlarımızın dostluğunun parlaq nümunələridir.

# Azərbaycan və qırğız ziyalılarının görüşü

Bakıda Qırğız Mədəniyyəti Günləri çərçivəsində aprelin 25-də Milli Kitabxanada "Azərbaycan-Qırğızıstan mədəni-humanitar dostluq əlaqələri" mövzusunda dəyirmi masa təşkil olundu.

Azərbaycan tərəfdən mədəniyyət nazirinin müavini Murad Hüseynovun, Qırğızıstan tərəfdən mədəniyyət, informasiya, idman və gənclər siyasəti nazirinin birinci müavini Timurlan Ajimaliyevin moderatorluğu ilə gerçəkləşən görüşdə iki ölkənin tanınmış elm, mədəniyyət və incəsənət xadimləri iştirak edirdilər.

Söhbət zamanı iki ölkənin milli kitabxanaları arasında kitab mübadiləsi, kino, teatr və mədəniyyətin digər sahələrində əməkdaşlığın daha da dərinləşdirilməsinin əhəmiyyəti vurğulandı.

Qırğız Diplomatlar Birliyinin sədri Janıl Tumenbayeva bildirdi ki, qloballaşma çağında türk xalqları olaraq mədəniyyətimizi və milli dəyərlərimizi qorumaqla özümüzü dünyaya təbliğ etməliyik. O həmçinin ölkəsində çoxsaylı azərbaycanlıların yaşadığını qeyd edərək onların diaspor təşkilatının fəaliyyətini yüksək qiymətləndirdi.



AMEA-nın prezidenti akademik İsa Həbibbəyli ölkələrimiz arasında dostluq münasibətlərinin yaranmasında Ulu öndər Heydər Əliyevin mühüm rolundan danışdı. Bildirdi ki, Heydər Əliyev 1995-ci ildə Bişkekdə "Manas" eposunun 1000 illik yubileyində çıxışı zamanı türksoylu xalqları birliyə səsləyib və bu gün Prezident İlham Əliyev bu yolu uğurla davam etdirir.

Çingiz Aytmatov Fondunun rəhbəri Eldar Aytmatov atasının Azərbaycana bağlılığından, buradakı dostları ilə münasibətlərindən danışdı, xatirələrini bölüşdü.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa, akademiklər Kamal Abdulla, Nizami Cəfərov, tarixçi-alim, diplomat Həsən Həsənov çıxışlarında "Manas" dastanının Azərbaycan xalqına "Dədə Qorqud" eposu qədər doğma olduğunu vurğuladılar.

Qırğızıstan Milli Tarix Muzeyinin direktoru Jıldız Başanova, T.Satılqanov adına Qırğızıstan Milli Filarmoniyasının direktoru Xalq artisti Kırqızbay Osmonev, Qırğızıstan Milli Konservatoriyasının rektoru Muratbek Beqaliyev, Dövlət dili və dil siyasəti Milli Komissiyasının sədri Melis Murataliyev və Qırğız Respublikası Qəhrəmanı Medetkan Şerimkulov çıxış edərək türk xalqları ədəbiyyatı və mədəniyyətinin qarşılıqlı təbliğinin ölkələrimizin daha da yaxınlaşmasında müstəsna rol oynayacağını bildirdilər.

Görüşdə Bakıda Çingiz Aytmatovun heykəlinin qoyulmasını yüksək qiymətləndirən qonaqlar ölkələrində görkəmli Azərbaycan bəstəkarları Üzeyir Hacıbəyli, Fikrət Əmirov və Arif Məlikovun əsərlərinin mütəmadi səsləndiyini, "Arşın mal alan" filmi, eyni zamanda onun teatrlaşdırılmış versiyasının qırğızlar tərəfindən böyük sevgi ilə qarşılandığını dedilər. Həmçinin Azərbaycanın Vətən müharibəsində Qələbəsi, torpaqlarımızın uzunillik işğaldan azad edilməsi, ölkəmizin suverenliyinin tam təmin olunmasının da qırğız ictimaiyyətinin sevincinə səbəb olduğu diqqətə çatdırıldı.

Tədbirə qonaq qismində qatılan Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılan və türk xalqlarının maddi-mənəvi dəyərlərini təbliğ edən quruma rəhbərliyindən məmnunluğunu bildirdi, bütün türk xalqlarına sülh və əmin-amanlıq arzuladı.

Sonda Qırğızıstan nəşrləri Azərbaycan Milli Kitabxanasına hədiyyə olundu.

**Lalə Azəri**

## "Heydər Əliyev irsini öyrənirik"

Ağstafa rayon Heydər Əliyev Mərkəzində Ulu öndərin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar ümumtəhsil müəssisələrinin şagirdləri arasında "Heydər Əliyev irsini öyrənirik" mövzusunda intellektual bilik yarışması təşkil edilib.



Əvvəlcə mərkəzdə şagirdlər üçün ekskursiya keçirilib.

Mərkəzin direktoru Ləman Cəlilova iştirakçıları yarışmanın şərtləri ilə tanış edib.

11 komandanın qatıldığı yarışmada Texniki-humanitar təmayüllü liseyin "Xarıbülbül", Ağstafa rayon 1 nömrəli tam orta məktəbin "Dəmir yumruq", Köçəsgər kənd 1 saylı məktəbin "Ulduz", Ağstafa şəhər 2 nömrəli məktəbin "Qafqaz", Ağstafa şəhər 3 nömrəli məktəbin "Qartal" və Həsənsu kənd məktəbinin "Zəfər" komandaları 2-ci tura vəsiqə qazanıb.

## "Yaşıl dünya naminə həmrəylik ili" tədbirləri davam edir



Zaqatala rayon Mədəniyyət Mərkəzi və Zaqatala rayonu üzrə mədəniyyət müəssisələrinin birgə təşkilatçılığı ilə "Təmiz ətraf mühit – yaşıl artım ölkəsi" mövzusunda uşaq, yeniyetmə, gənclər üçün rəsm, əl işləri, şeir qiraəti, mahnı ifası, aparıcılıq və məqalə müsabiqəsi keçirilib. Müsabiqənin sonunda eyniadlı videoçarx və "Meşəyə insan gəlir" cizgi filmi təqdim edilib.



Lənkəran şəhər Heydər Əliyev Mərkəzində isə rəsm studiyasının şagirdləri üçün açıq havada rəsm dərsi keçirilib. Dərsin əsas məqsədi yeniyetmə və gəncləri ətraf mühit və təbii sərvətlərin qorunmasında ekoloji maarifləndirməkdir. Dərslərin yaz və yay mövsümündə mütəmadi keçirilməsi nəzərdə tutulub.

Ağdam rayon Heydər Əliyev Mərkəzində (Quzanlı qəsəbəsi) "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar dəyirmi masa təşkil edilib. Əvvəlcə Ulu öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib. Sonra mövzu ətrafında çıxışlar dinlənilib.

## Sumqayıt rəssamları Şuşada

Sumqayıtın peşəkar rəssamları "Rəssamları özünə çəkən Azərbaycan təbiəti" layihəsi çərçivəsində ölkəmizin müxtəlif bölgələrində təşkil olunan etüd və plenerlərdə iştirak edirlər. Rəssamların növbəti səfəri Qarabağın incisi Şuşa şəhərinə olub.



Sumqayıt Dövlət Rəsm Qalereyasının müdiri Elada Həsənova bildirib ki, rəssamlar şəhərin tarixi məkanları və əsrarəngiz təbiəti ilə tanış olublar.

"Sənət xadimlərinin, şairlərin, yazıçıların, musiqiçilərin, rəssamların, memarların yaradıcılığında Şuşa kifayət qədər tərənnüm olunub. Sumqayıt rəssamları bir neçə gün davam edən yaradıcı ezamiyyətdə 30 ildir əsarət altında qalan cənnət guşəmizin füsunkar mənzərəsini, gözəl təbiətimizi çəkdikləri rəsmlərdə vəsf edərək, Şuşanı tərənnüm edən rəssamlar siyahısına imza atıblar. Şuşa yenidən milli mədəniyyət beşiyi olaraq dünya mədəni irsinə öz töhfəsini verməyə davam edəcək", – deyə o əlavə edib.

## Bir əsr oxucuların xidmətində

Masallı rayon Mərkəzi Kitabxanasında "100 il oxucuların xidmətində" adlı tədbir keçirilib.



Əvvəlcə iştirakçılar kitabxananın həyatında təşkil edilmiş kitab və rəsm sərgisinə baxıblar.

Tədbirin aparıcıları Aygül Mirzəzadə və Günay Xəlilova kitabxananın 100 illik fəaliyyəti haqqında iştirakçılara məlumat veriblər.

Lənkəran-Astara RMİ-nin rəisi Bəxtiyar Qılıncov və digər çıxış edənlər Azərbaycanda, eləcə də Masallıda kitabxana ənənələrinin qədimliyindən danışıb, mütaliənin vacibliyini vurğulayıblar.

Mədəniyyət mərkəzinin solistləri, "Həcər" folklor kollektivi, onbirillik İncəsənət məktəbinin müəllim və şagirdləri, Masallı şəhər 3 saylı körpələr evi-uşaq bağçasının balaca fidanları və Masallı Dövlət Regional Kollecinin tələbələrinin ifasında şeir və mahnılar səslənditilib.

Sonda bir qrup mədəniyyət işçisinə və oxuculara fəxri fərman və təşəkkürnamələr təqdim olunub.

## "Hər yanı gülşən Azərbaycan" – regional xor müsabiqəsi

Mədəniyyət Nazirliyinin dəstəyi, Mil-Muğan və Mərkəzi Aran Regional Mədəniyyət idarələrinin birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "Hər yanı gülşən Azərbaycan" adlı III Regional xor müsabiqəsi keçirilir.

Müsabiqənin ilk seçim mərhələsi aprelin 23-də Sabirabad rayon Mədəniyyət Mərkəzində gerçəkləşib. Tədbirdə Mərkəzi Aran RMİ-nin rəisi Aydın Bəşirov, Mil-Muğan RMİ-nin rəisi Faiq Xudanlı, hər iki idarənin əməkdaşları, mədəniyyət işçiləri iştirak ediblər.

Seçim mərhələsinə hər iki RMİ üzrə yeddi uşaq musiqi və incəsənət məktəbinin xor kollektivləri qatılıb. Onların çıxışlarını Azərbaycan Dövlət Xor Kapellasının bədii rəhbəri və dirijoru, Xalq artisti Gülbacı İmanova, Azərbaycan Dövlət Uşaq Filarmoniyasının direktoru Əməkdar incəsənət xadimi Dilarə Əliyeva və Bakı Musiqi Akademiyasının dosenti, Əməkdar müəllim Aqil Qafulovdan ibarət münsiflər heyəti qiymətləndirib.



Müsabiqənin ikinci seçim mərhələsi Mərkəzi Aran RMİ üzrə 9 uşaq musiqi məktəbinin xor kollektivlərinin iştirakı ilə aprelin 24-də Ağdaş şəhər 1 nömrəli Uşaq musiqi məktəbində keçirilib.

Mingəçevir şəhərindən Ü.Hacıbəyli adına 1 nömrəli onbirillik Musiqi məktəbi, Bülbül adına 2 nömrəli Uşaq musiqi məktəbi, Ağdaş şəhər 1 nömrəli Uşaq musiqi məktəbi, Beyləqan rayon Niyazi adına Uşaq musiqi məktəbi, Göyçay şəhər Arif Məmmədov adına Uşaq musiqi məktəbi, Kürdəmir şəhər Uşaq incəsənət məktəbi final mərhələsinə vəsiqə qazanıb.

Final mərhələsi mayın 7-də Mingəçevir şəhər Heydər Əliyev Mərkəzində təşkil ediləcək.

## Kitablar tarixin əbədi yaddaşıdır



Bölgələrdə 23 aprel – Dünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə müxtəlif tədbirlər keçirilib.

Qazax rayon MKS-nin E.Hüseynov adına Mərkəzi Kitabxanası şəhərin Səməd Vurğun adına istirahət parkında "Unutma! Hər sirrin açarı kitablardadır!" adlı səyyar sərgi açıb.

Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS-nin Mərkəzi Kitabxanası tərəfindən oxu zalında "Kitablar tariximizin əbədi yaddaşıdır" adlı tədbir keçirilib. Çıxışlarda 1995-ci ildə UNESCO tərəfindən təsis olunan bu günün əhəmiyyətindən söz açılıb. Sonda sərgiyə baxış keçirilib.

Tovuz rayon Mərkəzi Kitabxanasında "Kitab böyük müəllimdir" mövzusunda məlumat saatı təşkil edilib. Sonda kitab sərgisinə baxış olub.

Siyəzən rayon Mərkəzi Kitabxanası əlamətdar gün münasibətilə açıq havada kitab sərgisi təşkil edib.



M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında NMR Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə yazarlar, kitabxana əməkdaşları və tələbələr iştirak ediblər. Nazirliyin əməkdaşı Aygün Heydərli, Əməkdar mədəniyyət işçisi, şair-dramaturq Asim Əliyev, Naxçıvan Dövlət Universitetinin müəllimləri – dosentlər Aypara Behbudova və Nəzakət İsmayılova əlamətdar günün tarixindən və əhəmiyyətindən danışıblar.



Sumqayıt Gənclər Kitabxanası və Laçın rayonu Cicimli kənd tam orta məktəbinin (Sumqayıt şəhəri) kitabxana əməkdaşları isə "Mütalie mənəvi zənginlikdir" və "Yaş ötdükcə gəncləşən Sumqayıt" başlıqları altında sərgi təşkil ediblər.

Hazırladı: N.Məmmədli

## "Gəncə və gəncəlilər" – tanınmış tarzənə həsr olunan konsert

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında "Gəncə və gəncəlilər" layihəsi çərçivəsində tanınmış tarzən, Xalq artisti Fikrət Verdiyevin (1947–2022) xatirəsinə həsr olunmuş konsert keçirilib.

Proqramda "Zabul segah", "Bayatı-Şiraz", "Mahur", "Dilkeş", "Segah" təsnifləri və xalq mahnıları ifa olunub.

F.Verdiyevə həsr olunan film və videoçarxlar nümayiş etdirilib.

Gecədə sənətkarın ailə üzvləri, şəhərin ziyalıları, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.



Konsertdə "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblının müşayiəti ilə Xalq artistləri Niyaməddin Musayev, Samir Cəfərov, Əməkdar artistlər Ehtiram Hüseynov, Sevinc Sarıyeva, Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova, gənc ifaçılar Səbinə Ərəbli, Kamilə Nəbiyeva, Mirələm Mirələmov, Anar Quliyev, Humay Qədimova, ansamblın solistləri Samir Məmmədov, Leyla Mehdiyeva, Çinarə İsgəndərova, Şirvan Cahangirov və Rövşən Məmmədov çıxış ediblər.

Qeyd edək ki, quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Hafiz Quliyev olan tədbiri Əməkdar artist Firdovsi Atakişiyev aparıb.

## "Azərbaycan kinosu bir aləmdir"

Gəncə şəhər Heydər Əliyev Mərkəzində "Azərbaycan kinosu bir aləmdir" adlı layihəyə başlanılıb.

Gəncə-Daşkəsən RMİ, Gəncə şəhər Heydər Əliyev Mərkəzi, "Mədəniyyət Könüllüləri" İctimai Birliyi və Azərbaycan Texnologiya Universiteti Tələbə Gənclər Təşkilatı ilə birgə həyata keçirilən layihənin məqsədi milli kinonun təbliğ etmək, gənclərin Azərbaycan filmlərinə marağını artırmaqdır.

Layihə çərçivəsində təşkil olunan ilk seansda gənclər "Gün keçdi" bədii filmini izləyiblər.

Qeyd olunub ki, ekran əsəri 1971-ci ildə "Azərbaycanfilm" kinostudiyası tərəfindən istehsal edilib. Xalq yazıçısı Anarın ssenarisi əsasında çəkilən filmə rejissor Arif Babayev quruluş verib.

Film gənclər tərəfindən maraqla qarşılanıb.

Qeyd edək ki, layihə "2015–2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın icrası ilə əlaqədar təsdiq olunan tədbirlər planına uyğun həyata keçirilir.

## "Sizi kim unudar..."

### Şəhidlər haqqında kitab təqdim olunub

Lerik rayon Mədəniyyət Mərkəzində Əməkdar jurnalist İlqar Rüstəmovun şəhidlərimizin əziz xatirəsinə həsr etdiyi "Sizi kim unudar..." kitabının təqdimatı keçirilib.

Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Lerik rayon Heydər Əliyev Mərkəzinin direktoru Hüsaməddin Abbasov müəllif və kitab haqqında qısa məlumat verib.

Rayonun icra başçısı Əkbər Abbasov Zəfər tariximizi yazan igid əsgər və zabitlərimizin döyüş yoluna həsr olunmuş nəşri gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi istiqamətində önəmli rol oynayacağını bildirib.

Digər çıxış edənlər "Sizi kim unudar..." kitabını yüksək qiymətləndiriblər.

İlqar Rüstəmov kitabı imzalayaraq şəhid ailələrinə və oxuculara təqdim edib.



## NDU-da yaradıcılıq müsabiqə-festivalı

Naxçıvan Dövlət Universitetində (NDU) Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü və muxtar respublikanın 100 illik yubileyi münasibətilə bədii yaradıcılıq müsabiqə-festivalı keçirilib.



Universitetin tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov layihə haqqında məlumat verib. Deyib ki, müsabiqə-festival gənclər arasında vətənpərvərliyi, mədəniyyətimizə, incəsənətimizə, milli adət-ənənələrimizə hörməti təbliğ etmək məqsədilə təşkil olunur.

Sonra tələbələr musiqi, bədii qiraət və rəqs üzrə istedad və bacarıqlarını nümayiş etdiriblər. Onların çıxışı Bakı Xoreoqrafiya Akademiyasının prorektoru Xalq artisti Təranə Muradova, Əməkdar incəsənət xadimləri – şair Baba Vəziroğlu, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru Hafiz Quliyev və Azərbaycan Milli Konservatoriyasının müəllimi Arslan Növrəslidən ibarət münsiflər heyəti tərəfindən qiymətləndirilib.

Bildirilib ki, müsabiqənin qalibləri may ayında elan olunacaq və konsert keçiriləcək.

Universitetin kitabxanasında Baba Vəziroğlu ilə, İncəsənət fakültəsində Hafiz Quliyevlə, NDU-nun Musiqi Kollecində isə Tərənə Muradova və Arslan Növrəsli ilə görüşlər keçirilib, ustad dərsləri təşkil olunub.

## Laçına da fərdi avtomobillə səfərə icazə verilir

"Böyük Qayıdış" proqramının tərkib hissəsi olaraq Azərbaycan vətəndaşlarının işğaldan azad edilmiş ərazilərə səfərlərinin istiqamətləri genişləndirilir.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Dövlət Turizm Agentliyinin birgə yaydığı məlumatda bildirilir ki, aprelin 27-dən etibarən vətəndaşlar fərdi minik avtomobillərilə Şuşa şəhərinə və Suqovuşan qəsəbəsi ilə bərabər, Laçın şəhərinə də səfər edə biləcəklər.

Vətəndaşlar səfər üçün icazəni 26 aprel tarixindən başlayaraq, "Yolumuz Qarabağa" portalı (www.yolumuzqarabaga.az) üzərindən əldə edə bilərlər. Rəsmiləşdirilən icazələrin etibarlılıq müddəti 2 gün nəzərdə tutulub. Laçın şəhərinə səfər Füzuli rayonunun Alxanlı keçid məntəqəsindən daxil olmaqla "Zəfər" yolu və Horadiz qəsəbəsindən keçməklə Cəbrayıl – Zəngilan – Qubadlı – Laçın marşrutu ilə mümkün olacaq.

# Milli İncəsənət Muzeyində “Gizli və aşkar”

## Mərhum rəssam Məmməd Mustafayevin sərgisi



Azərbaycan Milli İncəsənət Muzeyində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Əməkdar rəssam Məmməd Mustafayevin (1948–2023) “Gizli və aşkar” adlı fərdi sərgisi açılıb.

Muzeyin direktoru Şirin Məlikova çıxış edərək sərgidə rəssamın həm 60-70-ci illərin eskizlərinin, həm də həyatının son onilliyində ərsəyə gətirdiyi əsərlərinin ilk dəfə nümayiş edildiyini deyib. O, bu ideyanı dəstəklədiyi üçün rəssamın oğlu İmad Mustafayevə və sərginin qurulmasında əməyi olanlara təşəkkürünü bildirib. Sərgidə rəssamın 30-dan çox əsərinin nümayiş olunduğu vurğulanıb.

Tədbirdə Xalq rəssamları Səlhab Məmmədov, Hüseyn Haqverdiyev, Bakı İncəsənət Məktəbinin rəhbəri Rafael Gülməmmədli çıxış ediblər.

Qeyd olunub ki, Məmməd Mustafayev yaradıcılığında rəngkarlıq, qrafika, assamblyaj və installyasiya obyektlərinə müraciət edib.

Qrafika və rəngkarlığın qovuşduğu, kollaj və qarışıq texnika ilə yaradılan monoxrom abstrakt əsərlər, ağ və qara boyalarla işlənilmiş, vizual formaların maraqlı eksperimenti ilə maraq doğuran rəngkarlıq nümunələri tamaşaçını rəssamın özünəməxsus yaradıcı təfəkkürü ilə cəlb edir.

Sonda İmad Mustafayev çıxış edərək atasının yaradıcılığı



haqqında fikirlərini ifadə edib, iştirakçılar və təşkilatçılara minnətdarlığını bildirib.

Sərgi oktyabrın 24-dək davam edəcək.

1948-ci ildə Bakı şəhərində anadan olan Məmməd Mustafayev ilk sənət təhsilini Ə.Əzimzadə adına Rəssamlıq Məktəbində alıb. Təhsilini daha sonra indiki Azərbaycan Memarlıq və İnşaat Universitetində və Kiyev İncəsənət İnstitutunda davam etdirib. Respublika, ümumittifaq və beynəlxalq miqyaslı sərgilərin iştirakçısı olub. 2002-ci ildə “Əməkdar rəssam” fəxri adına layiq görülüb. 2023-cü ildə dünyasını dəyişib.

# Bakıda Rusiya kinosu günləri keçirilir

Aprelin 24-də Nizami Kino Mərkəzində Azərbaycanda Rusiya kino günlərinin açılışı olub.

Mərasimdə Rusiyanın Azərbaycandakı Səfirliyinin nümayəndəsi Andrey Rumyantsev çıxış edərək səfir Mixail Yevdokimovun salamlarını çatdırıb. Qeyd edib ki, kino günləri həm tamaşaçılar, həm də kino xadimləri üçün bayramdır. Diplomat layihənin həyata keçirilməsi üçün yaradılmış gözəl şəraitə görə Azərbaycan rəhbərliyinə və Mədəniyyət Nazirliyinə minnətdarlığını bildirib.



Diqqətə çatdırılıb ki, kino günləri sovet insanlarının, o cümlədən Azərbaycandan olan əsgər və zabitlərin, arxa cəbhədə çalışan zəhmətkeşlərin, tibb işçilərinin İkinci Dünya müharibəsindəki şücaətini, faşizm üzərində ümumi qələbəmizi bir daha yada salan “Nürnberq” filmi ilə başlayır.

Kino günləri layihəsinin prodüseri Rusiyanın əməkdar mədəniyyət işçisi Yelena Lebedeva tədbirin təşkilinə köməklik göstərən hər kəsə təşəkkür edib.

Teatr və kino artisti Polina Neçitaylo atasının azərbaycanlı rəssam Səttar Bəhlulzadə ilə yaxın dost olmasına dair xatirələrini bölüşüb.

Çıxışlardan sonra rejissor Nikolay Lebedevin “Nürnberq” filmi nümayiş olunub. Filmin mövzusu İkinci Dünya müharibəsindən sonra, 1945-ci ildə Nürnberq şəhərində alman faşist rəhbərləri üzərində keçirilən beynəlxalq hərbi tribunalla bağlıdır və həmin vaxt burada rastlaşan iki gəncin münasibətlərindən bəhs edir.

Qeyd edək ki, filmin təqdimatı üçün baş rolun ifaçısı Sergey Kempo Bakıya gəlib.

Rusiya nümayəndə heyətinə həmçinin aktyorlar Yelena Zaxarova (“Partizan meşəsinin xəzinələri” filmi), aktrisa Polina Lazareva (“Qağayı” filmi) və Aleksey Bardukov (“Xokkey ataları” filmi) daxildir.

Rusiya kinosu günlərinin proqramına ümumilikdə dörd ekran əsəri daxildir. Nümayişdən sonra müzakirələr nəzərdə tutulub.

Film nümayişləri Nizami Kino Mərkəzində aprelin 27-dək davam edəcək.

# Cəfər Cabbarlının yubileyi Dövlət Teatr Muzeyində qeyd olunub

Böyük dramaturq, şair, yazıçı Cəfər Cabbarlının anadan olmasının 125 illiyi münasibətilə onun adını daşıyan Azərbaycan Dövlət Teatr Muzeyində tədbir keçirilib. Tədbir Cəfər Cabbarlının Ev-Muzeyi ilə birgə təşkil edilib.



Tədbirdə çıxış edən Dövlət Teatr Muzeyinin direktoru Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova Cəfər Cabbarlının yaradıcılığından, onun Azərbaycan mədəniyyəti tarixində xidmətlərindən danışıb.

Sonra Cəfər Cabbarlının həyat və yaradıcılığı ilə bağlı Dövlət Teatr Muzeyinin fondundakı materiallar əsasında hazırlanmış videoçarx nümayiş olunub.

Dramaturqun yaradıcılığı, əsərlərinin səhnə təcəssümü haqqında məruzələr dinlənilib.

Akademik Milli Dram Teatrının aktrisası Məsmə Ağaverdiyeva (Əməkdar artist) ədibin “Ey dan ulduzu”, Bakı Bələdiyyə Teatrının aktyoru Toğrul Rza “Məhkum Şərqə” və “Azərbaycan bayrağına” adlı şeirlərini qiraət ediblər. Əməkdar artist Rəşad İlyasovun ifasında (qanun) Cəfər Cabbarlının “Azad bir quşdum” mahnısı (“1905-ci ildə” dramından Sonanın mahnısı) səslənib.

# Məşqlər davam edir...

Dövlət Gənc Tamaşaçılar Teatrında “Qaraca qız” pyesi (Süleyman Sani Axundov, Abdulla Şaiq) əsasında hazırlanan eyniadlı tamaşanın məşqləri davam edir.



Tamaşanın quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimova, rejissoru Əməkdar artist Nofəl Vəliyev, rəssamı Nisə Hətəmova, musiqi tərtibatçısı İradə Muradovadır.

S.S.Axundovun “Qaraca qız” hekayəsi əsasında 1948-ci ildə şair, yazıçı Abdulla Şaiq Gənc Tamaşaçılar Teatrı üçün eyniadlı pyes yazıb. Əsər ölkənin bir sıra teatrlarında tamaşaya qoyulub. Bəstəkar Əşrəf Abbasov bu əsər əsasında Azərbaycanda uşaqlar üçün ilk balet (libretto müəllifi Əfrasiyab Bədəlbəyli) yaradıb.

***



Sumqayıt Dövlət Dram Teatrında balacalar üçün yeni tamaşa üzərində iş gedir. Dünya ədəbiyyatına müraciət edən yaradıcı heyət balacaların görüşünə Dyula Urbanın “Şoma və Fruji” pyesi (tərcümə Nizami Mirzəyevindir) əsasında hazırladıqları səhnə əsəri ilə gələcək.

Birhissəli tamaşaya gənc rejissor Fuad Kazımov quruluş verir. Quruluşçu rəssam Elşən Sərxanoğlu, icraçı rəssam Nizami Dadaşov, musiqi tərtibatçısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Telman Qəniyevdir. Səhnə əsəri mayın ortalarında təqdim olunacaq.

***

Qazax Dövlət Dram Teatrı isə Əli Əmirlinin “Onun iki qabırğası” komediyası teatrın baş rejissoru Əməkdar artist Musa Eyyubovun quruluşunda hazırlanır. Səhnə işinin quruluşçu rəssamı Aysan Omarova, musiqi tərtibatçısı Vahid Bayramovdur.

Məişət komediyasında rolları teatrın aparıcı səhnə ustaları Xəzər Gəncəli, Vüsal Hüseynov, Zəmanə Dərviş, Aytac Cəfərova, İlqar Hacıəliyev, Xəzər Gəncəli, Aydın Orucov və Xanım Məmmədova oynayacaqlar.

# “Könüllülərə yol açırıq”

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) “Bacarıqlı Əllər Dünyası” İctimai Birliyi tərəfindən “Könüllülərə yol açırıq” adlı satış sərgisi keçirilib.

“Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində təşkil olunan sərgidə həssas qruplardan olan insanların əl işləri təqdim edilib.

ADMİU-nun elm və yaradıcılıq işləri üzrə prorektoru dosent Sədaqət Əliyeva bildirib ki, sərginin təşkilində məqsəd həssas qrupa aid uşaqların cəmiyyətə adaptasiyası və cəmiyyət tərəfindən qəbulunu təmin etməkdir.

İctimai birliyin sədri Azadə Məmmədova sərgi iştirakçıları haqqında məlumat verib. Qeyd edib ki, indiyədək bir çox məkanlarda, o cümlədən ali təhsil ocaqlarında bu cür təqdimatlar təşkil ediblər. İstəyirik ki, cəmiyyətdə həssas qrupa aid olan uşaqlar tanınsın və onlara dəstək olaq.

Tədbirdə ADMİU-nun Muğam sənəti kafedrasının konsertmeysterləri və tələbələrin ifasında musiqilər səslənib.

# Vaxtanqov festivalında deyiləsi sözümüz var

İyun ayının 1-dən 5-dək Bişkekdə Teatr Menecerlərinin Vaxtanqov Festivalının beynəlxalq sessiyası –“TMVF-Qırğızıstan – 2024” keçiriləcək. Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının direktor müavini Əməkdar mədəniyyət işçisi İlham Məmmədov bu festivalda ölkəmizin teatr ictimaiyyətini təmsil edəcək.

Bişkek tədbirinə postsovet ölkələrinin mədəniyyət industriyasının nümayəndələri toplaşacaqlar. Onlar teatr marketinqi və menecmentindəki aparıcı tendensiya ilə bağlı və öz təcrübələrini bölüşəcək, yaradıcılıq məqsədləri və beynəlxalq əməkdaşlıq məsələlərini, qastrolların təşkilini və festival hərəkatını müzakirə edəcəklər. İlham Məmmədov “MDB ölkələrində teatr menecmenti” mövzusunda müzakirələrdə çıxış edəcək.

Forum günlərində keçiriləcək laboratoriyaların bütün iştirakçıları öz layihələrini təqdim edə biləcəklər. Beynəlxalq sessiyada şəxsən iştirak edə bilməyənlər üçün onlayn yayımlar təşkil olunacaq.

Qeyd edək ki, Teatr Menecerlərinin Vaxtanqov Festivalı 2019-cu ildən Rusiyada keçirilir.

**Gülcahan**

# “Ana, 2+2 bəzən dörd eləmir”...

## “Ümid nəğməsi” tamaşasından təəssürat



Haqlıdır. Eləmir. Ha əlləşib çək-çevir eləsən də, bəzi məqamlarda 2+2=4 olmur ki, olmur. Çünki həyat özünü sınaq meydanı elan edib. Gün-güzəran dalınca qaçmaqdan sanki yaşamaq yadımızdan çıxıb. İndi görün, belə məqamda kimdir hesab-kitabla baş yoran?!

Aprelin 19-da Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında gənc müəllif Pərviz Seyidlinin pyesi əsasında hazırlanan “Ümid nəğməsi” adlı tamaşanın premyerası oldu. Beynəlxalq festival (Daşkənd, “Uşaqlar XXI əsrdə” festivalı) üçün hazırlanan tamaşaya sənət ocağının kiçik səhnəsində baxdıq.

Əməkdar artist Nicat Kazımovun quruluş verdiyi səhnə əsərinin quruluşçu rəssamı Nisə Həsənova, musiqi tərtibatçısı Zaur Rəşidovdur.

Psixoloji dram janrında hazırlanan tamaşada obrazları aktyorlar Sevinc Əziz (Səlma ana), Sənan Kazımov (Cəlal), Nurlan Süleymanlı (Camal) və Səbinə Məmmədzadə (Leyla) canlandırırdılar.

Tamaşanın əsas ideyası autizm sindromlu gənc Camalın timsalında belə həssas qruplardan olan insanlar, onların hissləri və ailələri, cəmiyyətlə münasibətlərinə diqqət çəkməkdir.

Biz üçnəfərlik – ana və iki oğuldan ibarət ailə ilə tanış oluruq. Oğlanlarını tək böyüdən Səlma ananın yeganə istəyi xəstə kimi qəbul etmədiyi və hər vəchlə həm də müalicəsinə çalışdığı oğlu Camaldır. Tort bişirib satmaqla, sözsüz ki, buna nail olmaq mümkün deyil. Çünki bu sindromlu insanlarla bağlı mütəxəssislər və müalicə üsulları çox bahadır. Ailənin də buna gücü çatmır.

Ana tək deyil. Hələ uşaq yaşından evin kişisi kimi ailənin yükünü anası ilə bərabər daşıyan Camalın böyük qardaşı Cəlal da var. O, universitetdə oxuya-oxuya durmadan çalışıb. Amma təhsilini xaricdə davam etdirmək kimi planı da var. Bunun üçün pul da yığıb. Elə evə həmişəkindən tez gəlməsinin səbəbi də budur: İtaliyada təhsil üçün müraciətinə müsbət cavab verilib. Qalır təhsil haqqını ödəmək. Bu xəbəri sevincək anasına çatdırmaq istəsə də, hər şey başqa cür olur. Ana bu oğlunun təhsil üçün yığdığı pulu ondan xəbərsiz o biri oğlunun müalicəsinə sərf edib. Daha doğrusu, xaricdən gələcək mütəxəssisin qəbulu üçün ödəyib. Cəlal bunu biləndə hər şey dəyişir və illərlə içində saxladığı inciklikləri, ona rahatlıq verməyən hissləri püskürür. Anasının ona laqeyd olduğunu belə deməkdən çəkinmir.

Sözsüz ki, bütün bunlar Camalın köhnə telefonlarla dolu dünyasına gedib çatmır. Bütün gününü o telefonları qurdalamaqla keçirir. Ən son məqamda – xilas anında məhz o xarab telefonlardan birinin işləyəcəyindən, işlədə biləcəyindən xəbərsiz halda...

Ana-bala arasındakı mübahisə böyüdükcə Camalın da qorxusu, fəryadı yüksəlir. Cəlal gah anasına, gah xəstəliyini anasından başqa hər kəsin qəbul etdiyi qardaşına, gah özünə, gah şəkillərdən boylanan atasına, gah da bütün dünyaya qəzəb yağdırır. Anası ona təsəlli verməyə çalışsa da, münasibətlər daha da gərginləşir. Çünki Cəlal hətta qardaşına həsədini belə dilə gətirir. Qardaşının yerində olmaq istədiyini, uşaq vaxtlarında ona həsəd apardığını deyir. Ortaya çökən cansıxıcı sükutu qapının döyülməsi pozur. Çünki Cəlalın da, Camalın da vurğun olduğu qonşu qız – Camala kamança çalmağı öyrədən Leyla gəlir.

Konservatoriya tələbəsi olan Leyla Cəlala laqeyd deyil. Amma ana onların münasibətlərini qəbul edə bilmir. Axı Leyla Camalın dilinin əzbəri, meylini salıb mehr gördüyü yeganə insandır. Bu da Cəlalı özündən çıxarır.

Doğmalar arasında kök salan bu dağınıqlığa sahman üçün musiqi lazımdır və Camal müəlliminin ona öyrətdiyi bir parçanı ifa edir. Bu an ana az qalır qanad açıb uçsun. Amma sevinc uzun sürmür. Bu zaman zəlzələ baş verir və onlar dağıntılar arasında qalırlar. Ümidlərin öləziyib, əsəblərin tarıma çəkildiyi an – ailənin zirzəmi arasında qaldığı məqamda Camalın ifa etdiyi növbəti parça ümidlərin nəğməsi kimi qanadlanaraq xilasedicilərin onları tapmasına səbəb olur...

Tamaşa birmənalı olaraq təsirli idi. Sadə həyat hekayətinə inandırıcı tərzdə təqdimatına görə.

Səhnədə az-az gördüyüm Sevinc Əzizin Səlma anası həyat mübarizəsi aparan həssas insanın ağır yükünü yaxşı “daşıdı”. Xüsusən, obrazdan irəli gələrək sağlam övladı ilə xəstə, fərqli övladı arasında sıxışıb qalan, hisslərinin məngənəsində özündən başqa heç kəsə anlamaq imkanı verməyən məqamlarda. Aktrisa bu keçidlərdə böyük bir ana, qadın obrazı, onun fərqli ovqatlara, aldadıcı maneralarla uyğun dəyişkənliyini yaxşı ifadə etdi. O, durmadan sevgi göstərən ananı təqdim etdikcə sanki bizi cəmiyyət olaraq da autizm sindromlu insanların taleyinə biganə qalmamağa səsləyirdi.

Nurlanın qəhrəmanı Camal, onun bir aktyor kimi özünü “sındırmaq”la obrazına nüfuz etməsi, bir-iki məqam xaric, məhz autizm sindromlu insan kimi refleksləri çox yerində idi.

Gənc və potensial imkanlarına görə seçkin ikili – Sənan və Səbinənin də qəhrəmanları maraqlı, baxımlı, səmimi ovqat yaratdı. Sənanın səs tembri qəhrəmanın psixoloji sarsıntılarını bəzən yaşlı kişi, bəzən küskün uşaq, bəzən də xoşbəxt bir aşiq kimi ifadədə yetərli idi.

Tamaşaya verilən səhnə və musiqi tərtibatı da yerində, yığcam idi. Əsl səyyar tamaşa. Yəni daşına biləcək dekor-tərtibat seçilmişdi.

Tamaşanın bir neçə üstün cəhətini, xüsusən də maarifləndirici tərəfini qeyd etməyə bilmərəm. Məsələn, tamaşanı müəyyən əlavələr etməklə, bir növ, autizmli gənclərin ünsiyyət və münasibət sədlərinin, manevr və dəyişkən vəziyyətlərə uyğun reaksiyalarının səhnə ifadə dilini tapmaqla bu qəbildən insanlara təqdim etmək çox effektli olar. Digər tərəfdən, bu tamaşa ilə autizm sindromu ilə bağlı cəmiyyətdə məlumatlılığı artırmaq mümkündür.

Onu da qeyd edim ki, heyət məlum festivalla bağlı artıq qardaş Özbəkistanda səfərdədir və ümid edək ki, oradan haqq elədikləri uğurla dönəcəklər.

**Həmidə Nizamiqızı**

№31-32 (2097)
26 aprel 2024
www.medeniyyet.az

"Vətən fədailəri"

# "Mən də əmim kimi qəhrəman olacağam..."

Azərbaycan Ordusu tərəfindən 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirləri ilə sərhədlərimiz daxilində ölkəmizin suverenliyi tam bərpa olundu. Hərbçilərimizin böyük qəhrəmanlığı sayəsində bir gündən də az bir zamanda bölgədə yüz ildən çoxdur davam edən və dövlətçiliyimiz üçün ciddi təhlükə olan erməni separatizminin kökü birdəfəlik kəsildi.



Antiterror əməliyyatı zamanı 200-ə yaxın qəhrəman Vətən övladı şəhidlik zirvəsinə ucaldı, yüzlərlə döyüşçümüz yaralandı. "Vətən fədailəri" adlı yeni rubrikamızda birgünlük döyüşlər zamanı ölkəmizin suverenliyi uğrunda canını və qanını əsirgəməyən şəhidlərimiz haqqında məlumat verəcəyik. İlk qəhrəmanımız Elşad Cəfərov barədə söz açacağıq.

Əslən Füzuli rayonundan olan Elşad Malik oğlu Cəfərov 1999-cu il noyabrın 27-də Sabirabad rayonunun Qalağayın kəndində doğulub. Üçüncü sinfə qədər burada təhsil alıb. Sonra təhsilini Füzuli rayonundakı İkinci Zobucuq qaçqın qəsəbəsində 27 nömrəli tam orta məktəbdə davam etdirib. O, asudə vaxtlarında boksla məşğul olub, hətta bu idman növündə bir sıra nailiyyətlər də əldə edib.

2018-ci ildə əsgərliyə yollanan Elşad nümunəvi xidmətinə görə hər kəsin hörmətini qazanıb. Hərbi xidmətini başa vurduqdan sonra əsgər geyimini əynində daşımağa qərar verir. 2020-ci ilin avqust ayında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirib.

Yeri gəlmişkən qeyd edək ki, Elşadın əmisi Adil Cəfərov Birinci Qarabağ müharibəsi zamanı şəhid olmuşdu. Elşad da hər zaman tez-tez "Mən də əmim kimi qəhrəmancasına döyüşəcəyəm" deyər, onun və digər şəhidlərimizin qisasını almaq haqqında düşünərdi. Nəhayət, həmin qisas məqamı yetişmişdi. O, 2020-ci ilin 27 sentyabr tarixində başlayan və 44 gün davam edən Vətən müharibəsində ön sıralarda düşmənə qarşı qətiyyətlə döyüşür. Füzuli və Xocavəndin azadlığı uğrunda döyüşlərdə şücaət göstərir.

Elşad müharibədən sonra "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunur. O bu müharibədə də əzizlərindən birini – əmisi oğlu Əli Cəfərlini itirir...

Vətən müharibəsi Zəfərlə başa çatsa da, Vətənin köksündə separatizm yuvası qalmaqda idi. Elşad kimi on minlərlə gənc hərbçi öz missiyasını bitmiş hesab etmirdi. O, 2022-ci ilin oktyabrında könüllü olaraq komando kurslarına qatılır və N saylı komando hərbi hissəsində kəşfiyyatçı kimi xidmətini davam etdirir. Ötən ilin 19-20 sentyabr tarixlərində Qarabağda həyata keçirilən antiterror əməliyyatında Elşad bir neçə yüksəkliyin erməni terrorçularından təmizlənməsində xüsusi qəhrəmanlıq göstərir. Xocavənd istiqamətindəki döyüşlərdə şəhidlik zirvəsinə ucalır. Füzuli rayonunun Əhmədbəyli kəndində torpağa tapşırılır.

Şəhidin anası Solmaz Cəfərova qeyd edir ki, Elşad uşaq vaxtından ailəsinə bağlı olub: "Heç vaxt qoymazdı ki, ailəmizdən bir nəfərin xətrinə kimsə dəysin. O tək bizə qarşı yox, onu tanıyan hər kəsə qarşı ürəyiaçıq, hörmətcil idi. Böyüklə böyük, kiçiklə kiçik olardı. İmkanı daxilində kimsəsiz xəstə uşaqları olan ailələrə yardım edərdi. Bundan əlavə, Elşadın içində Vətənə çox böyük sevgi və hərb sahəsinə bağlılıq vardı. Komando hərbi hissəsində xidmət edən zaman əsgərlərinə qayğı göstərər, vaxtını onlarla birlikdə keçirərdi".

Solmaz xanım bildirir ki, Elşad Vətən müharibəsindən sonra onlara hər zaman şəhid olan qohumlarının qisasını alacağını deyirdi: "Elşadla sonuncu görüşümüz 2023-cü ilin 18 sentyabr tarixində oldu. Həmin gün evə gəlib bizimlə görüşdü, sonra geri qayıtdı. Heç bilməzdim ki, bu, oğlumla sonuncu görüşümdür...".

Qeyd edək ki, Elşad Cəfərov ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunub.

Allah rəhmət eləsin.

**Nurəddin**

# Musiqisi Ələkbər Tağıyevindir...

Bu təqdimatla görün nə qədər nəğmələr könlümüzün sarı siminə toxunub, ruhumuza qol-qanad verib. O bir bəstəkar kimi yaşadığı dövrün sənətlə bağlı müxtəlif qadağalarına rəğmən, böyük tapıntılarından idi.

Hərdən mənə elə gəlir ki, o nəğmələrin müəllifi sağdır, aramızdadır, hətta lap cavan yaşdadır. Bəli, ən sevdiyim nəğmələrin müəllifi, görkəmi bəstəkar, prokuror Ələkbər Tağıyevin anadan olmasının 100 illiyidir.



## Kimlər olmuş gör sirdaşın...

Ələkbər Tağıyev 1924-cü il aprelin 28-də Gəncədə dünyaya gəlib. İlk təhsilini burada alıb və 1938-ci ildə şəhərdəki xalq məhkəməsində əmək fəaliyyətinə başlayıb. Çoxuşaqlı kasıb ailəsinə, az da olsa, dəstək olmaq üçün hətta yaşını da iki il böyütdürüb. Məhkəmədə çalışmaq onun peşə seçimində öz sözünü deyib və Ümumittifaq Qiyabi Hüquq İnstitutunu bitirib. 1974-cü ilə qədər prokurorluq orqanlarında çalışıb...

Qəlblərə xitab edən musiqiləri isə başqa bir aləm... Onu tanıyanların bildirdiyinə görə, günün istənilən çağı, istənilən ovqatda beynində hansısa melodiyanın dolaşdığını sezmək olardı. Musiqi təhsili olmadığından dövrün məşhur yapon maqnitofonlarını evdə, işdə, maşında özü ilə gəzdirər, zümzümələrini kasetlərə yazar və musiqiçi dostlarına göndərib nota köçürdərmiş. Bu minvalla hər kəsə doğma nəğmələr zümzümələrdən konsert salonlarına, televiziya efirlərinə, radio dalğalarına ötürülərmiş. Bu da çox çətinliklə. Niyə? Dövrün tələbinə görə, musiqi, daha doğrusu, bəstəkarlıq təhsili olmadığından ona bəstəkar, mahnı müəllifi demək olmaz, Bəstəkarlar İttifaqına nəinki üzv, heç bu barədə rəy də vermək olmazmış.

Amma ixtisasca hüquqşünas olan, üstəlik də, xarakter etibarilə inadkar və tələbkar Ələkbər Tağıyev zamanla bu məsələni də yoluna qoyur. Amma ilk olaraq mahnılarına "xalq mahnısı" adını qoyur. Beləcə, dövrün ən məşhur ifaçıları Şövkət Ələkbərova, Zeynəb Xanlarova, Flora Kərimova, Nisə Qasımova, İslam Rzayev, Hüseynağa Hadıyev, Məmmədbağır Bağırzadə, Səxavət Məmmədov, Kəmalə Rəhimli və daha neçə-neçə müğənni onun repertuarına müraciət edərək mahnılarını oxuyurlar.

## Xoş xatirədir, qonşu qız...

Mahnı yazmağa 1958-ci ildən – oğlu Xaliqin dünyaya göz açmasından sonra başlayır... Erkən itirdiyi ilk övladının acısını azaldacaq yeni körpə ilə sanki bəstəkarın populyarlıq yolu da açılır. Dinləyicilər onu "Qonşu qız" mahnısı ilə tanıyıb sevirlər. Bu nəğmənin qısa zamanda geniş şöhrət qazanması müəllifə yeni ruh, ilham verir. Prokuror anlayır ki, onun araşdırdığı cinayət işləri fonunda qalan bəstəkarlığı artıq "idarə olunmur". Daha sonra "Şirin arzular", yaxın qohumuna yazsa da, bütün gedib qayıtmayanların, doğma adamların itkisinə elegiya olan "Sən gəlməz oldun", ürəyində dolaşanları dilinə gətirə bilməyənlərin "Dinə bilmədim", boz şəhərdə özünə yuva soraqlayanların "Bakı gecələri", böyük Vətən sevdalıların "Azərbaycanım mənim", izhara dönən "Ay ellər" kimi mahnılar ildırım sürəti ilə populyarlıq qazanır.

## Sözlə musiqinin harmoniyası

Onun nəğmələr silsiləsində ən çox diqqəti cəlb edən məqam, şübhəsiz ki, musiqi ilə sözlərin harmoniyasıdır. Sənətkarın musiqilərinin təsirli olmasının əsas sirri bu harmoniyada gizlənir. Bəstəkar Mikayıl Müşfiq, Mədinə Gülgün, Səməd Vurğun, Nəbi Xəzri, Süleyman Rüstəm, Rəsul Rza, Nəriman Həsənzadə, Əliağa Kürçaylı, Həmid Abbas, Bəxtiyar Vahabzadə, Hüseyn Arif, Məmməd Rahim, Hafiz Baxış kimi məşhur şairlərin yaradıcılığına müraciət edib, qəlboxşayan nəğmələr ərsəyə gətirib...

Mahnılarının məşhurlaşması ilə bəstəkar həm də musiqi təhsili almaq barədə qərar verir. 1962-ci ildə, 38 yaşında Asəf Zeynallı adına Musiqi Texnikumunun nəzdindəki bəstəkarlıq kursuna daxil olur və 1964-cü ildə təhsilini müvəffəqiyyətlə bitirir. 1976-cı ildə maestro Niyazi və Tofiq Quliyevin zəmanəti ilə SSRİ Musiqi Fonduna üzv seçilir. Beləliklə, onun məlum olan bütün mahnıları Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçir.

## Bəstələri ilə həm də müğənnilər yetişdirirdi...

Ələkbər Tağıyev o dövr üçün həm də maraqlı bir ənənə qoydu: bir müğənni ilə uzun müddət çalışmaq, onun səs tembri, ifa manerası və tamaşaçı ilə ünsiyyət metoduna uyğun mahnılar yazmaq.

Maraqlıdır ki, bu günün ifadəsi ilə desək, Ələkbər Tağıyev özü ilə bərabər, həm də mahnılarını oxuyan müğənnilərin prodüseri idi. Sözsüz ki, mahnıları və onların taleyi, uğuru, çətinliklə aşdığı senzura sərhədləri onu buna vadar edirdi.

Onun ən çox əməkdaşlıq etdiyi, mahnı silsiləsi yazdığı müğənni SSRİ Xalq artisti Zeynəb Xanlarova və gənc ikən kəşf edib ömrünün sonunadək mahnılarını sevə-sevə verdiyi Xalq artisti Nisə Qasımova idi.

Hər iki ifaçının yaradıcılıq uğurlarında, birmənalı olaraq, onun mahnıları böyük rol oynayıb. Zeynəb xanımın həzin səsində, Nisə xanımın ürkək üslubunda bu mahnılar başqa bir ovqat yaradırdı...

Musiqinin ən populyar və kütləvi janrı hesab olunan mahnının təsir gücü də genişdir. Bu anlamda Ələkbər Tağıyevin müxtəlif mövzulara, insanlara, vətənə, təbiətə sevgi ilə bağlı mahnılar silsiləsi, həqiqətən, maraq doğurur. Bəstəkarın bir nəğməsi sanki digər nəğməsi üçün giriş, anons xarakteri daşıyır. Sevgi, saf hisslərin tərənnümü və həsrətə, nisgilə qarşı xoş ovqatlı nəğmələr insanların dünyagörüşünə, estetik zövqünə ciddi təsir göstərir.

## Üzə çıxmayan melodiyalar...

Ələkbər Tağıyevin nota alınan, lentə yazılan mahnıları qədər üzə çıxmayan melodiyaları da olub. Bunu illər öncə bir müsahibəsində bəstəkarın oğlu Xaliq Tağıyev deyib: "Atamın mahnıya çevrilməmiş yüzlərlə melodiyası qalıb. Onları kiməsə etibar etməyə də ürək eləmirik – birdən kimsə öz adına çıxar. Onsuz da təzə çıxan dırnaqarası mahnıların bir neçəsində atamın melodiyalarını tanımışam. Mənim atam qədər musiqi duyumum yoxdur ki, özüm bununla məşğul olum, onları mahnı kimi hazırlayım. Yaxşı ki, bacımın ali musiqi təhsili var, onunla bir neçə melodiyanı mahnı kimi hazırlayıb ərsəyə çıxara bildik. Amma nə qədər melodiya elə kaset lentlərində qalıb. İndi gözəl melodiyaya çox böyük ehtiyac var...".

***

O, bahar fəslinə heyran idi. Elə mən də. Yəqin buna görə də hələ fevralın sonundan – qarı dəlib çıxan ürkək bənövşələr gözümə dəyəndən "Təbiətə işvə gəldi, naz gəldi" ilə başlayır söz-söhbətlərim. Bəstəkarın ən sevdiyim mahnısı bu olduğundan, həmçinin onun bütün ömrünü bahar kimi al-əlvan yaşayıb ruhunda daim "salxımlanan göy budaqlara" qol-qanad verib təbiətindəki "dağ çayları coşub-daşdığından" elə haqqındakı yazısına da "Qoy ilk bahar bəzəsin ömrümüzü" ilə nöqtə qoyuram.

Ruhundan qopub əbədi səslənəcək nəğmələrin 1981-ci ilin 16 aprelində dayanan bəstəkar qəlbinin avazı kimi yaşamaq haqqını heç kimə verməsin...

**Həmidə Nizamiqızı**

Molla Vəli Vidadi – 315

# Həqiqətlə dost olan şair



XVIII yüzilliyin birinci yarısından klassik poeziya ənənələri ilə yanaşı, xalq ruhunda, realist əsərləri ilə şöhrət qazanan qələm sahiblərimizdən biri də Molla Vəli Vidadidir. Bu il görkəmli şairin anadan olmasının 315 illiyidir.

Molla Vəli Məhəmməd oğlu Vidadi 1709-cu ildə indiki Şəmkir rayonunda anadan olub. Atası onun təlim-tərbiyəsi ilə ciddi məşğul olur. Ancaq Məhəmməd kişi qəflətən vəfat edir. Bu vaxtsız itkidən sonra ailə Qazax elinə köçür və Şıxlı kəndində məskunlaşır. Vəli təhsilini burada davam etdirir. Ərəb, fars dillərini öyrənir. Sonra mirzəliyə başlayır. Buna görə də "Molla Vəli" adı ilə tanınır. Savadı, dünyagörüşü, xoş və mülayim davranışı ilə qısa vaxt ərzində kənddə hörmət qazanır və həmişəlik Şıxlı kəndində yaşayır.

Gənc yaşlarından bədii yaradıcılıqla məşğul olan Molla Vəlinin şeirləri xalq tərəfindən maraqla qarşılanır. Bədii sözünü şöhrəti yaxın-uzaq ellərə də yayılır. Şair bir müddət Qarabağda, sonra isə Gürcüstanda II İraklinin sarayında yaşayır. Ancaq şair orada hansısa səbəbdən həbs edilir. Həbsdə ikən "Könül həsrət, can müntəzir, göz yolda" rədifli məşhur şeirini yazır. Zəmanəsini qəzəblə qamçılayan şair saraylardan uzaqda asudə, sərbəst yaşamaq istəyir. Mərd, ürəyiaçıq insanlara rəğbət bəsləyir. Knyazlara, xanlara xidmət etməyi özünə sığışdırmır. Elə buna görə də 1781-ci ildə II İraklinin sarayını tərk edir. Qazaxa qayıdır və ömrünün sonuna qədər orada yaşayır.

Molla Vəli Vidadinin şeirlər divanı, külliyyatı tam şəkildə dövrümüzə gəlib çıxmayıb. Zamanın haqsızlıqları ilə barışmayan şair dərin və mənalı şeirləri ilə müasirlərinin rəğbətini qazanıb. Bu onun dostu şair və dövlət xadimi Molla Pənah Vaqiflə "Deyişmə"sində aydın görürük.

Araşdırmalardan məlum olur ki, M.V.Vidadi zəmanəsinin bir sıra tanınan şair, yazıçı və dövlət xadimləri ilə yaxınlıq edib. Onun şəxsiyyətinə və yaradıcılığına xüsusi ehtiram göstərilib.

Ədəbiyyatşünas Firidun bəy Köçərli bu barədə yazıb: "Molla Vəli Vidadinin yaxşı elmi, savadı və rəvan təbi var imiş. Və özü də zöhdü təqva əhli olub, vaxtının çoxunu ibadətdə keçirərmiş. Haqq söyləyən və haqqı dost tutan bir vücud imiş ki, hər kəsin eybini açıq söyləməkdən dilgir və rəncidə olanların ədədi az deyil imiş. Amma bununla belə, hamı onu sayarmış, xatirini əziz və möhtərəm tutarmış".

Müasirlərindən Molla Pənah Vaqif, Şəki xanı şair Hüseyn xan Müştaq və başqaları onun yaxın dostları olub. Onlarla vaxtaşırı mənzum şeir şəklində məktublaşıb. Vidadi və Vaqifin yaxın dost və qohum olduğu da bildirilir. Bu yaxınlıq hər iki şairin yaradıcılığında dərin iz buraxıb. Məşhur "Deyişmə" də həmin dostluğun bədii ifadəsidir.

Şairin ömrünün müdrik çağları kədərli keçir. Cavan oğlu qəflətən vəfat edir. Eyni zamanda Vaqif və Hüseyn xan Müştaqın faciəli ölümündən bərk sarsılır.

M.V.Vidadinin yaradıcılığında vətənə, torpağa və insanlara məhəbbət yüksək bədii dillə ifadə olunub. "Belə qalmaz", "Dəli könül, gəl əylənmə qürbətdə", "Ey həmdəmim, səni qana qərq eylər", "Xəstə düşdüm, gələn yoxdur üstümə" kimi şeirləri yüksək bədii sənətkarlıq nümunələridir. Həm də bu şeirlərdə müəllifin dərin kədəri sezilməklə yanaşı, dövrünün hərc-mərcliyinə, ümidsizlik, eləcə də mənəvi tənhalıqdan şikayəti əksini tapıb:

*Dəli könül, gəl əylənmə qürbətdə,*
*Bir gün olur vətən deyib ağlarsan.*
*Yadlar ilə ömür çürür həsrətdə,*
*Bir gün olur vətən deyib ağlarsan.*

*Mən görmüşəm bu qürbətin dadını,*
*Yanıb-yanıb çox çəkmişəm odunu.*
*Qəmlənirsən hər görəndə şadını,*
*Bir gün olur, Vətən deyib ağlarsan.*

Vidadinin real tarixi hadisələr zəminində yazdığı əsərlərdən biri də "Müsibətnamə" poemasıdır. Bu epik-tarixi əsəri şair 1780-ci ildə dostu, Şəki xanı Hüseyn xan Müştaqın faciəli ölümü münasibətilə qələmə alıb. Ancaq əsərdə təsvir edilən faciə bir nəfərin deyil, sözün geniş mənasında, dövrün faciəsidir. Şair yaşadığı əsrdə ləyaqətli dövlət xadimlərinin fəlakətlərinin səbəbini "gərdişi-dövran"da görür. "Müsibətnamə"də zəmanənin bədii-epik mənzərəsi çox yığcam şəkildə verilib. Müəllifin lirik şeirlərində yer alan qəmli duyğular "Müsibətnamə"də də vardır. Bununla da şair zəmanəsində baş verən tarixi hadisələrin epik lövhələrini yaradıb. Şairin "Belə qalmaz" rədifli müsəddəsi (altılıq) isə yaradıcılığının son dövrü üçün səciyyəvidir.

Klassik ədəbiyyatımıza bənzərsiz nümunələri ilə gözəllik bəxş edən Molla Vəli Vidadi 13 may 1809-cu ildə Şıxlı kəndində vəfat edib, "Gəmiqaya" adlı qəbiristanlıqda dəfn olunub.

Şairin əsərləri Salman Mümtaz tərəfindən tərtib edilərək ilk dəfə 1939-cu ildə Bakıda nəşr edilib. "Vaqif və sair müasirin", "Azərbaycanda və Qafqaz da məşhur şüəranın əşarına məcmuədir", "Riyazül-aşiqin", "Təzkireyi-Nəvvab", "Gülzar" və "Azərbaycan ədəbiyyatı tarixi materialları" adlı əsərlərdə və təzkirələrdə Vidadinin şeirlərindən nümunələr verilib. Şairin şeirləri bir çox dillərə tərcümə edilib. Akademik Həmid Araslı şairin əsərlərini lüğət və şərhlərlə birlikdə 1977-ci ildə təkmilləşdirilmiş şəkildə çap etdirib. Əsərləri 1957, 1977-ci illərdə Bakıda, 1960, 1962, 1972-ci illərdə Moskvada çap olunub.

**Savalan Fərəcov**

Pressfakt

Ötən əsrin 30-cu illəri Azərbaycanın tarixində repressiyaların vüsət aldığı, siyasi müstəvidən ictimai həyata, ədəbiyyat və mədəniyyətdən hətta ailə-məişətədək hər yerdə "xalq düşmən"lərinin axtarıldığı, qorxu, səksəkə içində keçən, kabus dolu bir dövr idi. Sinfi mübarizənin qızğın cəbhələrindən biri də ədəbiyyat idi. Sosializm quruluş və baxışlarına uyğun gəlməyən hər şey ədəbiyyat üçün yad ünsür sayılırdı.

# İllər öncə qəzetlər nədən yazırdı?

## Milli Kitabxananın dövri mətbuat arxivindən (13)

1936-cı ilin 24 mart – 3 aprel tarixlərində Azərbaycan sovet yazıçılarının müşavirəsi keçirilmişdi. Müşavirə "Pravda" qəzetində formalizm və naturalizm əleyhinə dərc olunmuş məqalənin müzakirəsinə həsr edilmiş, on gün ərzində bu mövzuda şair, yazıçı və ədəbiyyatşünasların alovlu məruzələri dinlənilmişdi.

"Ədəbiyyat" qəzeti 14 aprel tarixli nömrəsindən həmin çıxışların dərc etməyə başlamışdı. İlk olaraq xitabət kürsüsü Səməd Vurğuna verilmişdi. Mətbuat xronikasından budəfəki seçməmiz həmin çıxışdan götürülüb. Seçmədə dövrün orfoqrafiyası saxlanılıb.

### Formalizm və naturalizm əleyhinə

*(Səməd Vurğun yoldaşın giriş nitqindən)*

Formalizmin doğrudan da, həyatdan uzaqlaşmaq nəticəsində meydana çıqdıqı aydındır. Bu məsələni aydınlaşdırmaq üçün mən çox hörmət bəslədiyimiz və şəxsən mənim çox hörmət bəslədiyim bizim hörmətli sənətkarımız Hüseyn Cavid yoldaşdan başlamaq istəyirəm. Mən Hüseyn Cavidə bir yoldaş kibi öz fikrimi söyləmək istəyirəm. Ümidvaram ki, o mənim sözlərimdən qəti surətdə inciməyəcəkdir.

Biz Hüseyn Cavidin yaradıcılığından istifadə etmiş və edəcəyik. H.Cavidin yaradıcılığında biz şairlər üçün öyrənməli şeylər çoqdur. Lakin Hüseyn Cavidin yaradıcılığı bizim Azərbaycan xalqilə, onun tarixilə, onun taleilə bağlı deyildir.

Mən əminəm ki, böyük sənətkar H.Cavid həqiqi xalqçılıq uğrunda apardığımız mübarəzədə bizim səsimizə hər kəsdən əvvəl səs verəcəkdir. Əminəm ki, H.Cavid Azərbaycan xalqını, sosyalizm ölkəsində xariqələr yaradan Azərbaycan xalqını daha dərindən sevəcək, onu bütün genişliyilə öz əsərlərində göstərəcəkdir. Azərbaycanın gözəl təbiəti, gözəl və cəsur qızları, çalışqan oğulları, qəhrəman xalqı vardır. Ölkəmiz hər şeyi olan zəngin xoşbaxt bir ölkədir. Bunların hamısı yazıçı üçün layiq mənbə deyilmi?...".




*"Ədəbiyyat" qəzeti, 14 aprel 1936-cı il*

# Abdulla Şaiqin "Türk çələngi" kitabının yeni nəşrinin təqdimatı

**Aprelin 23-də AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Abdulla Şaiqin "Türk çələngi" kitabının yeni nəşrinin təqdimat mərasimi keçirilib. Tədbir Abdulla Şaiqin Mənzil-Muzeyi ilə birgə təşkil edilib.**

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şair, nasir, dramaturq, tərcüməçi A.Şaiq həm də ömrünün qırx ilə yaxın dövrünü xalqının maariflənməsinə, mədəni inkişafına həsr etmiş böyük pedaqoqdur. Ədib 11 adda dərslik tərtib edib: "Gülzar", "Gülşəni-ədəbiyyat", "Türk ədəbiyyatı", "Qiraət kitabı", "Ədəbiyyat dərsləri" (H.Cavidlə birlikdə), "Ədəbiyyatdan iş kitabı" və s. bu qəbildəndir.

A.Şaiq "Türk çələngi" kitabını vahid Turan ideyasının əsasının qoyulduğu, bu istiqamətdə türksoylu xalqların mübarizə apardığı bir dövrdə, Azərbaycan Xalq Cümhuriyyəti illərində nəşr etdirib. Türk birliyinin aktual olduğu müasir dövrümüzdə "Türk çələngi" kitabının latın qrafikalı Azərbaycan əlifbasında nəşrinin həm oxucular, həm də mütəxəssislər üçün əhəmiyyəti böyükdür.



Kitab Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Arzu Əhməd Hacıyeva tərəfindən transfoneliterasiya olunub.

Təqdimatda çıxış edən institutun elmi işlər üzrə direktor müavini filologiya üzrə fəlsəfə doktoru Mehman Həsənli görkəmli ədib Abdulla Şaiqin Azərbaycan ədəbiyyatı tarixində və pedaqoji fikrinin inkişafında böyük rolu olduğunu diqqətə çatdırıb.

Ədibin mənzil-muzeyinin direktoru sənətşünaslıq üzrə fəlsəfə doktoru Ülkər Talıbzadə Abdulla Şaiqin "Türk çələngi" kitabının maarif sahəsində əhəmiyyətini vurğulayaraq qeyd edib ki, əvvəlki dövrlərdə yaranmış dərsliklər müasir dərslik yazan maarifçilərə örnək olmalı, zəmin rolunu oynamalıdır.

Kitabı transfoneliterasiya edən və yeni nəşrə ön söz yazan Arzu Əhməd Hacıyeva "Abdulla Şaiq irsində "Türk çələngi"nin yeri" mövzusunda çıxış edib. O, görkəmli ədəbiyyatşünas Yaşar Qarayevin bir fikrini diqqətə çatdırıb: Abdulla Şaiq şair ikən müəllim, müəllim ikən şairdir.

Filologiya elmləri doktorları İslam Qəribli, Asif Rüstəmli, Tahirə Məmməd, Lütviyyə Əsgərzadə, Eşqanə Babayeva, filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlı çıxışlarında nəşrin əhəmiyyətindən söz açıblar.



2009-cu ildən bəri Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanda Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində konsertlər, tamaşalar, sərgilər, elmi konfrans, ustad dərsləri və digər tədbirlər keçirilir.

# Üzeyir Hacıbəyli irsinə daha bir töhfə

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva 2009-cu ildə keçirilən "Muğam aləmi" beynəlxalq elmi simpoziumunda demişdir: "XX əsrin əvvəlində dahi Üzeyir Hacıbəyli öz yaradıcılığının timsalında ənənəvi muğamla müasir Azərbaycan musiqisi arasında körpü sala bildi. Beləcə, Fikrət Əmirovun və Niyazinin simfonik muğamlarına, Qarayevin simfonizminə və XX əsr Azərbaycan musiqisinin bir çox başqa uğurlarına yol açıldı".

Bu gün hamımız Üzeyir Hacıbəylinin yaradıcılığı, onun ölməz musiqisi ilə fəxr edirik. Azərbaycan Bəstəkarlar İttifaqının sədri professor Firəngiz Əlizadə məqalələr toplusuna ön sözdə Ü.Hacıbəylini "Şərq musiqisinin sönməz günəşi" adlandıraraq yazır: "Üzeyir bəyin irsi elə bir xəzinədir ki, daim tədqiqatçıların diqqət mərkəzindədir və yeni-yeni elmi əsərlərin yaranmasına səbəb olur".

Bu yaxınlarda təqdimatı keçirilən "Üzeyir Hacıbəyli" elmi məqalələr toplusu dahi bəstəkarın adı ilə şərəflənən beynəlxalq musiqi festivalı çərçivəsində Azərbaycan Bəstəkarlar İttifaqında təşkil olunan elmi konfranslardan seçilmiş məruzələr əsasında tərtib edilmişdir. Bu məruzələr həm Ü.Hacıbəyli, həm də M.Maqomayevin yaradıcılığını əhatə edir. Məlum olduğu kimi, hər iki sənətkarın Azərbaycan bəstəkarlıq məktəbinin yaranmasında və inkişafında böyük xidmətləri olmuşdur. Topluya daxil olan məqalələrdə onların yaradıcılığı yeni rakurslarda, müxtəlif aspektlərdən təhlil edilir.

Ümumiyyətlə, topludakı məqalələri belə qruplaşdırmaq olar:

- *Ü.Hacıbəylinin operalarının və musiqili komediyalarının tədqiqi;*
- *Ü.Hacıbəylinin xalq musiqisinə dair elmi tədqiqatlarının tədqiqi;*
- *Ü.Hacıbəyli və M.Maqomayevin yaradıcılığına elmi-publisistik səpkidən yanaşma;*
- *Ü.Hacıbəyli və M.Maqomayev yaradıcılığında folklor.*

Üzeyir musiqisinin yarandığı vaxtdan bir əsrdən çox keçmişdir. Onun musiqisi bu gün də təravətli səslənir, Azərbaycanın hüdudlarından uzaqlarda da özünə böyük dinləyici auditoriyası toplamaqdadır. Xalq artisti Alim Qasımov və Əməkdar artist Fərqanə Qasımovanın ifasında "Leyli və Məcnun" operasının qısaldılmış variantda tar və kamança qatılmaqla məşhur violonçel ifaçısı Yo-Yo Manın rəhbərlik etdiyi "İpək yolu" ansamblı ilə ifası buna əyani nümunədir. Məhz bu uğurlu ifadan sonra əsərin yeni rəqs variantı yaranır və xoreoqraf Mark Morrisin quruluşunda okeanın o tayında – Amerikada əsər tamaşaya qoyulur.

Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasının Amerika səhnəsində balet təcəssümü topluda sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Könül Nəsirovanın məqaləsində çox maraqlı faktlarla işıqlandırılmışdır. Müəllif bu sensasiyalı tamaşanın dizayn və geyimlərindən də bəhs etmiş, quruluşçu rəssamın səhnə geyimlərində əsas çalarlar kimi Azərbaycan bayrağının qırmızı və mavi rənglərini seçməsini vurğulamışdır.

Topluda Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasına dair bir neçə çıxış-məruzə yer almışdır. Xalq artisti, Üzeyir Hacıbəylinin Ev-Muzeyinin direktoru Sərdar Fərəcovun "Üzeyir Hacıbəyli və erməni sənətçilərin "mədəni" təcavüzü", Əməkdar incəsənət xadimi rejissor Hafiz Quliyevin "Üzeyir Hacıbəylinin "Arşın mal alan" əsəri xarici ölkə teatrlarının səhnələrində", sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Güllü İsmayılovanın "Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası əsasında çəkilən filmin yaranma tarixi və ekran həyatı" məruzələrində bu mövzu müxtəlif bucaqlar altında işıqlandırılır.

Sərdar Fərəcovun "Üzeyir Hacıbəyli və erməni sənətçilərin "mədəni" təcavüzü" məruzəsində bir çox tarixi faktlara istinad edilir. İlk erməni operasının məhz Ü.Hacıbəylinin operaları erməni müəllif tərəfindən dinlənildikdən sonra yaradılması faktının vaxtilə müəllifin özü tərəfindən açıqlanması, Üzeyir Hacıbəyli ilə A.Spendiarovun görüşləri də diqqətə çatdırılır.

Hafiz Quliyevin "Üzeyir Hacıbəylinin "Arşın mal alan" əsərinin xarici ölkə teatrlarının səhnələrində" məruzəsində rejissorun Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında, Ankara Opera və Balet Teatrında, Belarus Akademik Musiqili Teatrında, eləcə də Pekin, Moskva, Bolqarıstanda hazırladığı tamaşalar haqqında məlumatlar verilir.

Güllü İsmayılovanın məruzəsində "Arşın mal alan" filminin yaranma tarixçəsinin Stalinin hakimiyyəti dövründə müəyyən siyasi və iqtisadi maraqlardan qaynaqlanması haqqında fikirləri də diqqəti cəlb edir.

Azərbaycan xalq rəqslərinin, yallıların folklorşünaslıqda məhsuldar tədqiqatçısı kimi tanınan sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Rauf Bəhmənlinin "Üzeyir Hacıbəyli və Müslüm Maqomayev yaradıcılığında xalq rəqslərinin tədqiqi və istifadəsi məsələləri" başlığı altında çıxışında "Arşın mal alan" və eyni zamanda "O olmasın, bu olsun" musiqili komediyalarında istifadə edilən xalq rəqslərindən ətraflı bəhs edilir.

Topluda Ü.Hacıbəylinin "Koroğlu" operası haqqındakı məruzələr də var. Bəstəkarlar İttifaqının katibi Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarovanın "Azərbaycan opera incəsənətində "Koroğlu" ənənələri" məruzəsində operanın səhnə tarixi, müasir zamanda TÜRKSOY-un xətti ilə bir çox türkdilli xalqların səhnələrində də tamaşaya qoyulması faktı açıqlanır. Müəllif "Koroğlu"dan sonra Azərbaycan opera sənətinin inkişafının əsas tendensiyaları haqqında ətraflı məlumatlar vermiş, Q.Qarayevin və C.Hacıyevin "Vətən", C.Cahangirovun "Azad", R.Mustafayevin "Vaqif", F.Əmirovun "Sevil", F.Əlizadənin "İntizar" operasında "Koroğlu" operasının bir sıra ənənələrinin davamı məsələsindən söz açmışdır. O, "İntizar" operasını yüksək dəyərləndirərək bu fikri vurğulayır: "F.Əlizadənin "İntizar" operası Ü.Hacıbəylinin "Koroğlu" operasının yaradıcı şəkildə müasirliklə milliliyin birləşdiyi XXI əsrin novator operasıdır. Bu opera son dövrdə Azərbaycanda vətənpərvərlik və qəhrəmanlıq ruhunda yazılan əsərlər arasında zirvədə duran bir incidir".

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Həbibə Məmmədova məruzəsində Ü.Hacıbəylinin "Koroğlu" və M.Maqomayevin "Şah İsmayıl", "Nərgiz" operalarında qəhrəmanlıq mövzusunun təcəssüm olunmasının, opera qəhrəmanlarının solo, ansambl səciyyəsi və ən başlıcası xor səhnələrinin nümunələri əsasında təhlilini aparmışdır.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Jalə Qulamova "Koroğlu" operasının TÜRKSOY xətti ilə səhnəyə qoyulması tarixi haqqında ətraflı məlumatlar vermişdir.

Topluda "Koroğlu" operasına dair məqalələr sırasında sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaşzadənin "Koroğlu" operasında epik koqnitiv modellərin təfsirinə dair" məqaləsi xüsusi maraq doğurur. Müəllif Koroğlu obrazının musiqi dilinin semantik müstəvisində eposun, səciyyəvi modellərin araşdırılması kimi çox mürəkkəb elmi probleme toxunmuş, onun ətraflı izahını vermişdir. Bəstəkarın operasının musiqi üslubunun formalaşmasında "aşıq koloriti" yaratmaq üçün aşıq musiqisinə xas olan şikəstə janrından (müəllif məruzəsində bunu "döymə" adlandırır) istifadə edilməsini təkcə IV pərdədəki aşıq süitasında deyil, bütün opera boyu araşdıraraq, bu məsələyə tam yeni rakursdan yanaşır.

Topluda təqdim olunan məqalələr sırasında Ü.Hacıbəylinin elmi fəaliyyətinə dair tanınmış mütəxəssislərin çıxışları da geniş yer almışdır. Əməkdar incəsənət xadimi, akademik Zemfira Səfərovanın "Üzeyir Hacıbəylinin elmi irsi türk xalqlarının musiqi müstəvisində" məruzəsində bəstəkarın 1919-cu ildə "İstiqlal" məcmuəsində çıxmış "Azərbaycan türklərinin musiqisi haqqında" yazısından ətraflı bəhs edilir və müəllif bu yazını "Azərbaycan xalq musiqisinin əsasları" kitabından öncə yazılmış dəyərli əsər kimi səciyyələndirir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Ülkər Talıbzadənin "Üzeyir Hacıbəyli şəxsiyyəti Zemfira Səfərovanın elmi yaradıcılığında" məqaləsində isə görkəmli alimin Ü.Hacıbəyli irsinin tədqiqinə dair kitabları, monoqrafiyaları, tədqiqatçının işıqlandırdığı sənədlərin qarşılıqlı əlaqəsi problemləri ətraflı təhlil edilmişdir. Ü.Talıbzadənin topluda nəşr olunan digər bir məqaləsi Ü.Hacıbəylinin "Sənsiz" və "Sevgili canan" qəzəl-romanslarının musiqi-mətn əlaqələrində intonasiya uyğunluğu məsələlərinə həsr olunaraq mövzunun tam yeni bir yozumudur.

Üzeyir Hacıbəylinin elmi irsinə həsr olunan məqalələr sırasında sənətşünaslıq üzrə fəlsəfə doktoru Sürəyya Ağayevanın "Azərbaycan muğamlarının səs sisteminin tədqiqi problemləri" məqaləsini də qeyd etməliyik. Müəllif müasir musiqişünaslığın aktual problemlərindən birinə toxunaraq, Ü.Hacıbəylinin məqam nəzəriyyəsi məsələlərinə, muğam pərdələri və tarın köklənməsinə aydınlıq gətirmişdir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Fəttah Xalıqzadənin "Üzeyir Hacıbəyli yaradıcılığının etnomusiqişünaslıq elminin inkişafında rolu" məruzəsində çox maraqlı məsələlərə toxunulur. Müəllif bir sıra tədqiqatçıların bəstəkar yaradıcılığını etnomusiqişünaslıq elminin müstəvisində öyrənilməsi ənənəsinə istinadən Ü.Hacıbəyli yaradıcılığını araşdırır.

Üzeyir Hacıbəylinin elmi yaradıcılıq sahəsində fəaliyyəti topluda əhatə olunmuşdur. Sənətşünaslıq üzrə elmlər doktoru, dosent Leyla Zöhrabova "Ü.Hacıbəylinin Azərbaycan xalq musiqisinin əsasları" elmi işinin Azərbaycan musiqişünaslığının inkişafında rolu" məruzəsində çox haqlı olaraq belə bir fikri vurğulayır: "XX əsrin əvvəllərində Ü.Hacıbəylinin adı nəinki bəstəkarlıq məktəbinin, eləcə də musiqişünaslıq sənətinin əsasının qoyulması ilə bağlıdır".

Sənətşünaslıq üzrə elmlər doktoru, professor Aytac Rəhimovanın "Xalq musiqisinin bərabər temperasiya sisteminə keçməsində Üzeyir Hacıbəylinin rolu" məqaləsində bəstəkarın böyük tarixi vəzifəni peşəkar şəkildə həyata keçirməsi ətraflı şəkildə açılır.

Nəhayət, topluda yer alan maraqlı elmi-publisist istiqamətli məqalələrdən də qısaca bəhs etmək istərdik: AMEA-nın müxbir üzvü, sənətşünaslıq üzrə elmlər doktoru Rəna Məmmədovanın "Hüseynqulu Sarabski Üzeyir Hacıbəylinin operalarının ilk tamaşalarında", sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızının "Üzeyir Hacıbəyli və Müslüm Maqomayev dostluğu məktublarının izi ilə", "Üzeyir Hacıbəyli irsinin radio və televiziyada təbliği", L.Zöhrabovanın "Azərbaycan bəstəkarlıq məktəbinin yaranıb formalaşmasında Ü.Hacıbəyli və M.Maqomayevin birgə fəaliyyəti" məqalələrində hər iki bəstəkarın, onların həmkarlarının birlikdə keçdiyi çətin və mürəkkəb həyat və yaradıcılıq yolları işıqlandırılır.

S.Təhmirazqızının məqaləsini oxuyarkən Üzeyir Hacıbəylinin və Müslüm Maqomayevin həyat sınaqları haqqında bir sözün vurğulanması diqqətimizi cəlb etdi: bu, "fədakarlıq" sözüdür. Doğrudan da, bu iki böyük sənətkar fədakar şəxsiyyətlər idi. Bu gün biz bütün musiqiçilər adından onların möhtəşəm ruhu qarşısında baş əyirik.

**Aytən Babayeva**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**

## Xatirə təqvimi — 27 aprel – 1 may

### Azərbaycan

**27 aprel 1940** – Folklorşünas alim, professor Bəhlul Ağabala oğlu Abdulla (1940–2011) Lerik rayonunun Ləlıhiran kəndində anadan olub.

**27 aprel 1951** – Əməkdar artist, tanınmış kamança ifaçısı Ədalət Səfərəli oğlu Vəzirov (1951 – 5.10.2002) anadan olub. Moskvada Beynəlxalq musiqi müsabiqəsinin (1974) qalibi olub. Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA) müəllim işləyib.

**27 aprel 2020** – Azərbaycanda kitabxanaşünaslıq elmi məktəbinin banisi, tarix elmləri doktoru, Əməkdar elm xadimi, professor Abuzər Alı oğlu Xələfov (25.12.1931 – 2020) vəfat edib.

**28 aprel 1914** – Xalq yazıçısı Qılman İlkin (Qılman İsabala oğlu Musayev; 1914 – 6.11.2009) Bakının Mərdəkan kəndində doğulub. Əsərləri: "Şimal küləyi", "Dəniz qapısı" və s. "Kölgələr sürünür", "Yenilməz batalyon" filmlərinin ssenarisini yazıb.

**28 aprel 1916** – Teatr rəssamı, Əməkdar incəsənət xadimi Əsgər Məmmədismayıl oğlu Abbasov (1916 – 9.2.1970) anadan olub. Musiqili Komediya Teatrının baş rəssamı işləyib.

**28 aprel 1916** – Bəstəkar, Əməkdar incəsənət xadimi Ədilə Hacağa qızı Hüseynzadə (1916–2005) anadan olub. Simfonik əsərlərin, romansların, "Duyğular" vokal silsiləsinin müəllifidir.

**28 aprel 1917** – Xalq artisti Məhluqə Sadıqova (1917 – 15.8.2003) anadan olub. Akademik Milli Dram Teatrında çalışıb, uzun illər radioda "Bulaq" verilişinin əvəzsiz aparıcısı olub. "Yenilməz batalyon", "Yeddi oğul istərəm", "Bakıda küləklər əsir" və s. filmlərdə çəkilib.

**28 aprel 1920** – Məşhur tarzən, Xalq artisti Hacı Məmməd oğlu Məmmədov (1920 – 2.8.1981) Şamaxıda doğulub. Azərbaycan Dövlət Filarmoniyasında çalışıb. Eyni zamanda tanınmış həkim-cərrah olub.

**28 aprel 1920** – Bəstəkar, dirijor və pedaqoq Məmməd Qəzənfər oğlu Məmmədov (1920 – 28.1.1987) anadan olub.

**28 aprel 1921** – Əməkdar elm xadimi, rus dilçiliyi sahəsində elmlər doktoru adı almış ilk azərbaycanlı alim, professor Məmməd Tağı oğlu Tağıyev (1921 – 28.9.1994) Samux rayonunda doğulub. "Azərbaycanca-rusca lüğət"in (4 cild) redaktoru, "Rusca-azərbaycanca frazeoloji lüğət"in tərtibçisidir.

**28 aprel 1925** – Yazıçı, Əməkdar incəsənət xadimi Məmmədhüseyn Rüstəm oğlu Əliyev (1925 – 6.7.1994) Lerik rayonunun Kürdəsər kəndində doğulub. "Dağlar oğlu", "Torpağın ətri" və s. romanların müəllifidir.

**28 aprel 1929** – Dilçi alim, türkoloq, AMEA-nın müxbir üzvü Zərifə İsmayıl qızı Budaqova (1929–1989) İrəvanda anadan olub.

**28 aprel 1956** – Tanınmış tarzən Gülağa Tapdıq oğlu Zeynalov (1956 – 2.1.2015) Şuşa şəhərində doğulub. Mədəniyyət və İncəsənət Universitetinin kafedra müdiri olub.

**29 aprel 1919** – Kinorejissor, SSRİ Xalq artisti, Azərbaycanın və Türkmənistanın Əməkdar incəsənət xadimi Əjdər Mütəllim oğlu İbrahimov (1919 – 20.9.1993) anadan olub. "Bakı" kinostudiyasında, "Mosfilm"də işləyib. "Onun böyük ürəyi", "Ulduzlar sönmür", "Məhəbbətim mənim, kədərim mənim" və s. filmlərə quruluş verib.

**29 aprel 1941** – Azərbaycan KP MK-nın Büro iclasında Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyinin keçirilməsi haqqında qərar (yubiley mərasimi 1941-ci il 16 oktyabr tarixinə təyin olunmuşdu) qəbul edilib.

**29 aprel 2000** – Prezident Heydər Əliyev Xalq şairi Rəsul Rzanın 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**29 aprel 2023** – Xalq artisti, tanınmış qarmon ifaçısı Aftandil Eynulla oğlu İsrafilov (24.1.1941 – 2023) vəfat edib.

**30 aprel 1880** – Xalq rəssamı Əzim Aslan oğlu Əzimzadə (1880 – 15.6.1943) Bakının Novxanı kəndində doğulub. 1906-cı ildən əsərləri "Molla Nəsrəddin" jurnalında dərc olunub. Milli təsviri sənətdə karikatura janrının, kitab qrafikası sənətinin (M.Ə.Sabirin "Hophopnamə" kitabına illüstrasiyalar, 1914) banisi sayılır.

**30 aprel 1920** – Əməkdar mədəniyyət işçisi, tarzən Kamil Əlisəftər oğlu Əhmədov (1920–1996) Bakıda anadan olub.

**30 aprel 1946** – Əməkdar artist Xanlar Yunis oğlu Muradov (1946 – 5.2.2005) Bakının Qobu qəsəbəsində doğulub. Sumqayıt Musiqili Dram, Musiqili Komediya teatrlarında çalışıb, filmlərə çəkilib.

**1 may 1901** – Aşıq Bəhmən Göyçəli (Bəhmən İbrahim oğlu Qarayev; 1901–1976) anadan olub.

**1 may 1910** – Xalq artisti, müğənni Sürəyya Sədrəddin qızı Qacar (1910–1992) Şuşada doğulub. Operalarda Leyli ("Leyli və Məcnun", "Aşıq Qərib" və s.) əsas partiyalarda çıxış edib.

**1 may 1928** – Əməkdar rəssam Tələt Ağalar oğlu Şıxəliyev (1928–1987) Masallı rayonunun Digah kəndində anadan olub. Yaradıcılığında portret janrı üstünlük təşkil edir.

**1 may 1934** – Yazıçı, dramaturq İsi Abbas oğlu Məlikzadə (1934 – 12.5.1995) Ağcabədi rayonunda anadan olub. Əsərləri və ssenariləri əsasında filmlər ("Qoca palıdın nağılı", "Kişi sözü", "Küçələrə su səpmişəm" və s.) çəkilib.

**1 may 1936** – Görkəmli dilçi alim, akademik Tofiq İsmayıl oğlu Hacıyev (1936 – 27.11.2015) Cəbrayıl rayonunun Soltanlı kəndində doğulub. AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru olub.

**1 may 1941** – Xalq rəssamı Mayis Əlişir oğlu Ağabəyov (1941 – 17.6.2020) Bakıda anadan olub. 20-dən çox filmin quruluşçu rəssamıdır: "Babək", "Nizami", "Qətl günü", "Özgə vaxt" və s. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru olub.

**1 may 1947** – Əməkdar incəsənət xadimi, bəstəkar Rauf Tofiq oğlu Əliyev (1947 – 14.6.2017) Şuşada anadan olub. Simfonik, instrumental və kamera əsərləri, filmlərə ("Yalan", "Fəryad") musiqi yazıb.

**1 may 1950** – Görkəmli yazıçı, dramaturq, publisist Məmməd Səid Ordubadi (24.3.1872 – 1950) vəfat edib. "Dumanlı Təbriz", "Qılınc və qələm" və s. romanları ilə Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisi sayılır.

### Dünya

**27 aprel 1878** – Tacik milli ədəbiyyatının banisi, yazıçı və şair Sədrəddin Ayni (Səid-Muradzadə; 1878–1954) anadan olub. Özbək dilində də yazıb. Əsərləri: "Odina", "Dohunda", "Qullar".

**27 aprel 2007** – Məşhur violonçel ifaçısı, dirijor, SSRİ Xalq artisti Mstislav Leopoldoviç Rostropoviç (27.3.1927 – 2007) vəfat edib.

**28 aprel 1848** – Danimarka bəstəkarı Lüdviq Şitte (Ludvig Schytte; 1848–1909) anadan olub. "Gero", "Məmlük" operalarının müəllifidir.

**28 aprel 1902** – Norveç yazıçısı Yohan (Johan) Borgen (1902–1979) anadan olub. Romanları: "Yay yoxdur və olmayacaq", "Məhəbbət cığırı", "Mən" və s.

**29 aprel 1727** – Fransız baletmeysteri, müasir dünya baletinin nəzəriyyəçisi Jan-Jorje Nover (Jean-Georges Noverre; 1727–1810) anadan olub. Onun xatirəsinə ehtiram olaraq 29 aprel Beynəlxalq Rəqs Günü kimi qeyd olunur.

**29 aprel 1907** – Amerika rejissoru, 4 dəfə "Oskar" mükafatçısı Fred Sinneman (Fred Zinnemann; 1907–1997) anadan olub.

**30 aprel 1870** – Avstriya-macar bəstəkarı və dirijoru Frans (Franz) Lehar (1870–1948) anadan olub. "Şən dul qadın", "Qaraçı məhəbbəti", "Torağaylar oxuyan yerdə" operettalarının müəllifidir.

**30 aprel 1883** – Çex satirik yazıçısı və dramaturqu Yaroslav Haşek (1883–1923) anadan olub. "Əsgər Şveykin sərgüzəştləri" romanı ilə məşhurlaşıb. "Əcnəbilər üçün gid", "Mənim it alverim" hekayələr toplusunun müəllifidir.

**1 may 1881** – Fransız filosofu, antropoloq və paleontoloq Teyar de Şarden (Pierre Teilhard de Chardin; 1881–1955) anadan olub. Əsərləri: "Bəşəri mühit", "İnsan fenomeni".

**1 may 1924** – Rus yazıçısı Viktor Astafyev (1924–2001) anadan olub. Əsərləri: "Çar-balıq", "Qəmli detektiv", "Lənətlənmiş və öldürülmüşlər" və s.

**1 may 1924** – Gürcü aktyoru və rejissoru David Abaşidze (1924–1990) anadan olub. Filmləri: "Qəm yemə", "Pirosmani", "Veri məhəlləsinin melodiyası".

**Hazırladı: V.Orxan**



# Moskvada Tağıyevin xatirə gecəsi keçirilib

Moskvadakı Dövlət Şərq İncəsənəti Muzeyində məşhur azərbaycanlı sənayeçi və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin vəfatının (1924) 100 illiyinə həsr olunmuş xatirə gecəsi keçirilib.

Muzeyin direktoru tarix elmləri doktoru Aleksandr Sedov bəşər tarixində himayədarlıq və xeyriyyəçiliyin həmişə nəcib əməl kimi qiymətləndirildiyini qeyd edib. Vurğulayıb ki, belə insanların xidmətləri gələcək nəsillərə örnəkdir.

Kardioloq, tibb elmləri doktoru, professor Mehman Məmmədov azərbaycanlıların yaddaşında dərin iz qoymuş Zeynalabdin Tağıyevin xeyriyyəçilik və maarifçilik fəaliyyətindən danışıb. Bildirib ki, 1918-ci ildə Azərbaycanda Şərqin ilk demokratik respublikasını quran azərbaycanlı ziyalıların bir qismi Tağıyevin maddi yardımı ilə Avropa universitetlərində təhsil almışdı.

Mehman Məmmədov bakılı milyonçunun həyat və fəaliyyətindən bəhs edən "Əsrlər boyu davam edən nəciblik" kitabının təqdimatını da keçirib.

Azərbaycanın Rusiya Federasiyasındakı Səfirliyinin müşaviri Zaur Paşayev tədbirin təşkilatçılarına səfir Polad Bülbüloğlunun təşəkkür sözlərini çatdırıb. Qeyd edib ki, Tağıyevin xatirəsi Azərbaycanda ehtiramla yad edilir. Prezident İlham Əliyevin sərəncamı ilə Bakıda xeyriyyəçinin abidəsi qoyulub.

Şərq İncəsənəti Muzeyinin direktor müavini İlya Zaitsev diqqətə çatdırıb ku, Tağıyev Rusiya imperiyasında yüksək nüfuza malik idi. O, Rusiya imperiyasında yaşayan bütün müsəlmanların, eləcə də digər millətlərin və dinlərin nümayəndələrinin də qayğısına qalırdı. Mesenatın fəaliyyəti xüsusən də Şimali Qafqaz xalqlarının maariflənməsinə yönəlmişdi.

General Balakişi Ərəblinskinin nəslindən olan professor Andrey Ərəblinski, jurnalist Azər Cahangirov, Moskva Linqvistik Universitetinin İlahiyyat kafedrasının dosenti Dimitri Safonov, həmçinin tədbirə onlayn rejimdə qoşulan Milli Azərbaycan Tarixi Muzeyinin direktoru akademik Nailə Vəlixanlı böyük xeyriyyəçi haqqında fikirlərini bölüşüblər.

Tədbirdə iştirak edən Azərbaycanın və Rusiyanın Əməkdar rəssamı Əsgər Məmmədov Şərq İncəsənəti Muzeyinə "Xarıbülbül" əsərini hədiyyə edib.

# Parisdə "Türk mədəniyyəti və dilləri günü"

Fransa Şərq Dilləri və Sivilizasiyaları İnstitutunda (İNALCO) "Türk mədəniyyəti və dilləri günü" adlı tədbir keçirilib. Tədbirdə türk ölkələrinin milli adət-ənənələri nümayiş edilib.

İNALCO-da təhsil alan azərbaycanlı tələbələr də mədəniyyətimizi əks etdirən stend təşkil ediblər. Bayrağımızla bəzədilmiş stenddə ölkəmizin tarixi, mədəniyyəti, mətbəxi haqqında fransız dilində çap edilmiş kitablar, xalçaçılıq, eləcə də milli qədim sənətkarlıq nümunələri sərgilənib.

Tədbirdə türk xalqlarının incəsənət nümunələri təqdim olunub. Tələbələrimiz milli rəqsimizi ifa ediblər.

Tədbirə qatılanlar türk xalqlarının milli şirniyyatlarının, o cümlədən Azərbaycan paxlava və şəkərburasının dadına baxıblar.

# Gənc skripkaçı Barselonada müsabiqədə diploma layiq görülüb

Çexiyada yaşayan əslən Şuşadan olan azərbaycanlı gənc skripkaçı Canel Nəcəfli İspaniyanın Barselona şəhərində keçirilən "Victoria Music Competition for Violin" müsabiqəsində diploma layiq görülüb.



Diasporla İş üzrə Dövlət Komitəsindən bildiriblər ki, müsabiqənin münsiflər heyətinin prezidenti professor Viktor Tretyakov, üzvləri professor Nataliya Lixopoy və Laya Monserat olub.

Qeyd edək ki, bu, Canel Nəcəflinin beynəlxalq müsabiqələrdə ilk uğuru deyil. Bundan əvvəl o, "Florida keys" beynəlxalq müsabiqəsində ikinci yer tutub və Nyu-Yorkdakı məşhur "Weill" konsert salonunda Fikrət Əmirovun "Məhəbbət rəqsi" əsərini ifa edib.

# Milanda gecə saatlarının səs-küyü ilə mübarizə

## Açıq havada pizza və dondurma yemək qadağan oluna bilər

İtaliyanın Milan şəhərində gecə saatlarında paketli hazır məhsulların satışını qadağan edən qanunun tətbiq edilməsi planlaşdırılır. Qadağa pizza, dondurma və digər yeməkləri ehtiva edəcək.

Beləliklə, şəhər səlahiyyətliləri gecə saatlarında şəhər küçələrini bürüyən səs-küylü izdihamla mübarizə aparmaq niyyətindədir. Qadağa may-dekabr dövründə, həftəiçi saat 00:30-dan və istirahət günlərində 01:30-dan qüvvədə olacaq. O, yalnız açıq havadakı masalara şamil ediləcək.

Şəhər sakinlərinin apelyasiya vermək və qanunun mətninə dəyişikliklər təklif etmək üçün may ayına qədər vaxtları var.

Qeyd edək ki, 2013-cü ildə Milanda bu qaydanı tətbiq edilməsinə cəhd edilib. Lakin dondurma satıcıları etiraz bildirəndən sonra bu ideyadan imtina olunub. Qalmaqal fonunda mer Culiano Pizapia istefa vermək məcburiyyətində qalıb.

# İmperator Avqustun villası tapılıb

Tokio Universitetinin arxeoloqları Vezuvi dağının şimal tərəfində Roma imperatoru Qay Yuli Sezar Avqusta (Qay Oktavian) məxsus villa aşkar ediblər.



Romada imperatorluğun qurucusu hesab edilən Avqust eramızdan əvvəl 27-ci ildən eramızın 14-cü ilinə – vəfatına qədər hökmranlıq edib.

Neapol şəhərinin daxilindəki Somma Vesuviana qəsəbəsində qazıntılar zamanı tapılan villanın bir hissəsi hələ ötən əsrin 30-cu illərində tapılmışdı. Bununla belə, Avqustun villası 2002-ci ildən bəri xüsusilə arxeoloji tədqiqatların mərkəzinə çevrilib.

Aşkar edilən binanın Avqustun hökmranlığından sonra inşa edildiyi güman edilsə də, son araşdırmalar zamanı imperatorun hökmranlığı dövrünə aid daha qədim tikilinin qalıqları tapılıb. Arxeoloqlar radiokarbon üsulundan istifadə ediblər və həmin binanın eramızın 79-cu ilində Vezuvidə vulkan püskürməsindən əvvəl mövcud olduğunu bildiriblər.

Qazıntılar zamanı vulkan materialı arasında Vezuvinin şimal tərəfi ilə aşağıya doğru hərəkət edən dağılmış divar və dam kirəmitlərinin parçaları aşkar edilib.

Qədim Roma tarixçiləri Tasitus və Suetoniusun əsərlərində Avqustun ölümünün Vezuvi dağının şimal tərəfində yerləşən məkanda baş verdiyini, bu villanın aşkar edildiyini və daha sonra onun imperatorun xatirəsinə məbəd kimi təqdis edildiyini təsvir edən sübutlar var.

## Xronoqraf

**29 aprel** Beynəlxalq Rəqs Günüdür (International Dance Day). 1982-ci ildə UNESCO nəzdində Beynəlxalq Rəqs Şurası tərəfindən təsis edilib.

**30 aprel** Beynəlxalq Caz Günüdür (International Jazz Day). 2011-ci ildə UNESCO tərəfindən caz musiqisinin sülh, birlik və dialoqun, insanlar arasında ünsiyyətin genişləndirilməsində rolunu diqqətə çatdırmaq məqsədilə təsis olunub.

# Tarixdə bu gün



## Olaylar, faktlar (28 – 30 aprel)

### 235 il əvvəl...



**30 aprel 1789-cu ildə** ABŞ-də prezidentlik institutu fəaliyyətə başlayıb, 1-ci prezident Corc Vaşinqtonun inauqurasiya mərasimi keçirilib. O vaxt ABŞ-nin paytaxtı Nyu-York şəhəri idi və prezidentin iqamətgahı burada yerləşirdi.

### 106 il əvvəl...

**29 aprel 1918-ci ildə** erməni-daşnak dəstələri Gümrü şəhəri yaxınlığında azərbaycanlı əhaliyə qarşı kütləvi qırğın törədiblər. Yüzlərlə insan qətlə yetirilib.

### 104 il əvvəl...

**28 aprel 1920-ci ildə** Azərbaycan Xalq Cümhuriyyəti süqut edib, Azərbaycan Sovet Sosialist Respublikasının yaradıldığı elan edilib. Bir gün öncə bolşevik Rusiyasının 11-ci ordusu Bakıya daxil olmuş, Azərbaycan K(b)P MK və Rusiya K(b)P Qafqaz Diyar Komitəsinin Bakı Bürosu hakimiyyəti təhvil vermək barədə AXC Parlamentinə ultimatum göndərmişdi. Parlament gərgin müzakirələrdən sonra ultimatumu qəbul etmişdi. Ölkədə formal hakimiyyət azərbaycanlı kommunistlərdən ibarət Müvəqqəti İnqilab Komitəsinə (sədr – Nəriman Nərimanov) verilib.

### 101 il əvvəl...

**28 aprel 1923-cü ildə** Bakıda Azərbaycan Foto-Kino İdarəsinin nəzdində 1-ci Dövlət kinofabrikinin (indiki "Azərbaycanfilm" kinostudiyası) açılışı keçirilib. Sonrakı illərdə kinostudiya müxtəlif adlar altında (Azdövlətkino, Azərkino, Azərfilm, Bakı kinostudiyası) fəaliyyət göstərib, 1960-cı ildən Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası adlanır.

### 79 il əvvəl...

**30 aprel 1945-ci ildə** İkinci Dünya müharibəsində Berlində faşist Almaniyasına qarşı son döyüş – Reyxstaqa hücum başlayıb. Adolf Hitler bir gün öncə rəsmi nikaha girdiyi Yeva Braunla intihar edib və iflas etmiş Almaniyanın idarəçiliyini admiral Karl Dönitzin başçılığı ilə müvəqqəti hökumətə vəsiyyət edib.

### 49 il əvvəl...



**30 aprel 1975-ci ildə** Cənubi Vyetnam Amerika işğalından qurtulub və ölkənin şimalı ilə birləşib. 1965-ci ildə ABŞ Cənubi Vyetnama hərbi kontingent yeritmişdi. 1973-cü ildə Amerika qoşunlarının ölkədən çıxarılması barədə Parisdə müqavilə imzalandı. 1975-ci ilin aprelində ABŞ-nin sonuncu hərbi dəstəsi Cənubi Vyetnamı tərk etdi. 30 aprel Vyetnamda dövlət bayramı – Qələbə Günü kimi qeyd olunur.

### 15 il əvvəl...

**30 aprel 2009-cu ildə** Azərbaycan Dövlət Neft Akademiyasında (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Gürcüstan vətəndaşı olan Fərda Qədirov tərəfindən terror aktı törədilib. Terror aktı nəticəsində 12 nəfər həlak olub, 13 nəfər yaralanıb. Hadisə yerinə polislərin gəldiyini görən terrorçu özünü öldürüb.

**Hazırladı: V.Orxan**

# İstanbulda "Bir arzu gerçəkləşir"

İstanbulda azərbaycanlı rəssam, YARAT Müasir İncəsənət Məkanının təsisçisi Aida Mahmudovanın fərdi sərgisi açılıb.

Aprelin 23-də "Vısıon Art Platform" qalereyasında təşkil edilən sərginin açılışında Azərbaycanın İstanbuldakı baş konsulu Nərminə Mustafayeva da iştirak edib.



"Bir arzu gerçəkləşir" (A Dream Unfolds) adlı sərgi iyunun 23-dək davam edəcək. Ekspozisiyada müəllifin 61 əsəri nümayiş olunur.

Aida Mahmudova Sent-Martin İncəsənət və Dizayn Kollecində təhsil alıb. Belçika, London, Roma, Nyu-York, Moskva, Tiflis və Bakıda beynəlxalq fərdi sərgiləri olub, qrup sərgilərində, həmçinin 55 və 56-cı Venesiya Biennalesində iştirak edib.

Əsərləri innovativ materiallar və yanaşmalar ilə səciyyələnir və avanqard düşüncə tərzi konkretləşir. Rəssam bizi incəsənətlə bağlı düşüncələrimizi yenidən nəzərdən keçirməyə sövq edir və dünyanı fərqli bir baxış bucağından yenidən dərk etməyə səsləyir.

# Mədəni diplomatiya sənəti

## Madriddə azərbaycanlı gənc rəssamların sərgisi

Azərbaycanın İspaniyadakı Səfirliyinin və "Dirçəliş" Gənclərin Sosial-Psixoloji Reabilitasiya Mərkəzinin (GSPRM) birgə təşkilatçılığı ilə Madriddə azərbaycanlı gənc rəssamların "Art of Cultural Diplomacy" ("Mədəni diplomatiya sənəti") adlı sərgisi açılıb.



Sərginin açılışında Azərbaycanın İspaniyadakı səfiri Ramiz Həsənov, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev çıxış ediblər.

"Dirçəliş" GSPRM-in direktoru İslam Baxşəliyev indiyə kimi müxtəlif ölkələrdə sərgilər keçirdiklərini bildirib: "İspaniyada keçirilən sərgi sayca 25-ci sərgimizdir. Məqsədimiz Azərbaycan mədəniyyətini təbliğ etmək, dünyada sülh və əmin-amanlıq olmasını, ispan və Azərbaycan gəncləri arasında mədəniyyətlərarası dialoqu inkişaf etdirməkdir".

Tədbirdə Türkiyə, Macarıstan, Rumıniya, Albaniya, Gürcüstan və digər ölkələrin diplomatları, yerli sənətsevərlər iştirak ediblər.

Sonda səfir Ramiz Həsənov iştirakçı rəssamlara sertifikatlar təqdim edib. Sərgiyə aprelin 26-da yekun vurulacaq.

# Azərbaycanın turizm imkanları Qazaxıstanda nümayiş olunur

Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə ölkəmizin turizm imkanları 24-26 aprel tarixlərində Qazaxıstanın Almatı şəhərində keçirilən "KITF" turizm və səyahət sərgisində təqdim olunur.




Mərkəzi Asiyanın aparıcı turizm sərgisindəki milli stenddə ölkəmizi AZAL, "Şahdağ" Turizm Mərkəzi, hotellər və turizm agentlikləri daxil olmaqla, ümumilikdə 9 sənaye tərəfdaşı təmsil edir. Sərgidə ölkə turizminin təbliği və təşviqi ilə bağlı B2B (Biznesdən biznesə) görüşlər keçirilir, əməkdaşlıq imkanları müzakirə olunur.

Azərbaycan stendinin ziyarətçiləri ölkəmizin tarixi, milli mətbəxi, adət-ənənələri, mədəni irsi, UNESCO-nun Dünya İrs Siyahısına daxil olmuş obyektləri ilə tanış olur, müxtəlif turizm imkanları haqqında ətraflı məlumatlandırılır.

Ziyarətçilərə Qafqaz dağlarının mənzərəli gəzinti marşrutları, ekoturlar, isti termal bulaqlara səfərlər, Azərbaycanda fəaliyyət göstərən müalicəvi kurortlara turlar daxil olmaqla, yerli turizm təcrübələri təqdim olunur.

Qeyd edək ki, 2024-cü ilin yanvar-mart dövründə Azərbaycana səfər edən Qazaxıstan vətəndaşlarının sayı 16 522 nəfər təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 135% artımdır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az

**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiymәti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 948
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641